

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Birinci xanım: "Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq"



3

№ 209 (6892)

SƏS

16 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Sosial sahənin inkişafı diqqət mərkəzindədir




2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər

# Qəzza ilə bağlı 5 ssenari



9

## YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin 40-cı ildönümü münasibətilə keçirilən rəsmi tədbirlərdə iştirak edib



4

## Eşqim, məhəbbətim, Laçınım mənim!




5

## Rasim Quliyev: "Laçın Azərbaycanın qürur mənbəyidir"



7

## Dəfn pulu almaq üçün nə etmək lazımdır?



16

## "Dövlət büdcəsi yenə də sosialyönümlü olacaq"



15

# Sosial sahənin inkişafı diqqət mərkəzindədir

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər

**Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.**

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186















nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür. İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialı Muğanlı-İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir. Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

"DOST EVİ" birmərtəbəli olmaqla iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana - dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.






Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.

Diqqətə çatdırıldı ki, bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "DOST EVİ"ndəki emalatxanalarla tanış oldular.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək. Qeyd olundu ki, filialda 50-80 nəfər benefisiar üçün 6 ay - 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək. Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın bio-market sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

Bir sözlə, "DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

İsmayıllı rayonunda belə bir müəssisənin yaradılması, eyni zamanda, bu ərazinin abadlaşmasına imkan yaradıb. "DOST EVİ" Muğanlı-İsmayıllı yolu ilə hərəkət edən insanlar, xüsusilə qonaqlar üçün gözəl asudə vaxt, istirahət və keyfiyyətli xidmətlər məkanı olacaq.

# Birinci xanım: “Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq”

**Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyevanın noyabrın 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının “Fələstin üçün tək ürək” toplantısının iştirakçılarına müraciəti olub. AZƏRTAC Birinci xanım Mehriban Əliyevanın müraciətini təqdim edir.**

- Hörmətli Əminə xanım,

Hörmətli toplantı iştirakçıları,

İlk növbədə, Türkiyə Respublikasının Birinci xanımı, hörmətli Əminə Ərdoğana bu tədbirdə iştirak etmək üçün dəvətinə görə dərin təşəkkürümü bildirirəm.

Hörmətli Əminə xanımın humanitar və sosial sahələrdə fəaliyyətini, o cümlədən hərbi münaqişələrdən əziyyət çəkən mülki şəxslərə, qadınlara və uşaqlara yardım göstərilməsi məsələlərinə verdiyi töhfəni xüsusi qeyd edir və bunu yüksək qiymətləndirirəm.

Bu il yaranmasının 100-cü ildönümünü qeyd edən Türkiyə Respublikası bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli dövlətdir. Qardaş Türkiyə daim sülhün və ədalətin yanında olaraq bölgədə və dünyada sabitliyin və təhlükəsizliyin təmin olunmasına önəmli töhfə verir. Azərbaycan-Türkiyə qardaşlığı və birliyi bu gün özünün ən yüksək səviyyəsindədir.

Hörmətli toplantı iştirakçıları,

İsrail-Fələstin münaqişə zonasında gərginliyin miqyasının gündən-günə genişlənməsi və daha böyük insan faciəsinə səbəb olması ciddi narahatlıq doğurur. Ürək ağrısı ilə izlədiyimiz dözülməz insan iztirabları hər birimizi dərindən sarsıdır. Bu silahlı qarşıdurmadan ən çox əziyyət çəkənlərin mülki şəxslər, xüsusilə də qadınlar və uşaqlar olması olduqca üzücüdür. Hərbi əməliyyatların aparılması zamanı beynəlxalq humanitar hüquqa riayət edilməsi zəruridir. Mən həlak olanların yaxınlarına başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını diləyirəm.

Azərbaycan hərbi əməliyyatların dərhal dayandırılması ilə bağlı çağırışları dəstəkləyir və son gərginliklə əlaqədar oktyabr ayında BMT Baş Assambleyasında qəbul edilmiş qətnamənin lehinə səs vermişdir. Ölkəmiz beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq, İsrail-Fələstin münaqişəsinin “iki dövlət” prinsipi əsasında həllinin tərəfdarıdır. 2019-cu ildən etibarən Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq. İnanıram ki, bu il Ramallah şəhərində ölkəmizin Təmsilçilik Ofisinin fəaliyyətə başlaması Azərbaycan-Fələstin əlaqələrinin inkişafına təkan verəcəkdir.



Birinci xanım Mehriban Əliyevanın “Fələstin üçün tək ürək” toplantısının iştirakçılarına müraciəti

Son on il ərzində ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi xətti ilə dəfələrlə humanitar və maliyyə yardımı göstərmişdir. Eyni zamanda, Azərbaycan Fələstinə siyasi və maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bunların sırasında Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransını və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransını qeyd etmək istərdim. Azərbaycan dövlətinin verdiyi təqaüd əsasında fələstinli gənclər ölkəmizdə ali təhsil alırlar. Azərbaycan tərəfindən Fələstində inşa ediləcək məktəb Fələstin xalqına dəstəyimizin növbəti təzahürü olacaqdır.

Geniş səlahiyyətlərə malik beynəlxalq təsisatların üzləşdiyi hazırkı böhran vacib məsələlərin həllini əngəlləyir. Dərin kökləri olan bu böhran başqa bir müzakirə mövzusudur. Qeyd etmək istəyirəm ki, müasir dövrdə hərbi münaqişələrin həll olunmaması böyük ölçüdə beynəlxalq hüququn selektiv şəkildə tətbiq olunmasından irəli gəlir. İkili standartlar və qərəzli yanaşma bu böhranın daha da kəskinləşməsinə şərait yaradır.

İctimai rəyin çaşdırılması və beynəlxalq hüququn manipulyasiyası üçün qərəzli media platformaları vasitəsilə yalan hekayələr yayılır. Bundan daha təhlükəlisi isə mənəvi dəyərlərdən manipulyasiya məqsədilə sui-istifadə olunması hallarıdır.

Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerlə-yeksan edilmişdir.

Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu il sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi. Çıxışımın sonunda vurğulamaq istərdim ki, ən çətin məqamlarda belə bəşəriyyət mərhəmət hissini itirməməlidir. Buna görə də, hörmətli Əminə xanıma bu vacib tədbiri təşkil etdiyinə və dəvətinə görə bir daha dərin minnətdarlığımı bildirirəm.

# Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri birinci oxunuşda qəbul edilib

Dünən Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. Hökumət üzvlərinin də iştirak etdikləri iclasda dünənki iclasın gündəliyində olan növbəti məsələlər müzakirə edilib. Parlamentin sədri Sahibə Qafarova gündəliyin növbəti - 8-ci məsələsinin ”Nağdsız hesablaşmalar haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib. O, layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxıldığını söyləyib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili ”Nağdsız hesablaşmalar haqqında” Qanuna təklif edilən dəyişikliyin texniki xarakter daşıdığını deyib. Layihəyə əsasən, nağdsız hesablaşmalarla bağlı Qanunun 3.4.11-ci və 3.4.12-ci maddələrində göstərilən tələblər bir nəzarət-kassa aparatının çeki üzrə hesablaşmalara şamil olunur.

Sonra T.Mirkişili ”Sığorta fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Diqqətə çatdırılıb ki, ləğv edilən sığortaçının aktivləri onun kreditorları arasında qanunun 119-cu maddəsində müəyyən edilmiş növbəlik qaydasında bölüşdürülür. Təklif olunan dəyişiklik ləğv edilən sığortaçının dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına ödəməli olduğu vergi və digər məcburi ödənişləri heç bir müddət məhdudiyyəti tətbiq edilmədən tam məbləğdə ödənməsini nəzərdə tutur.

Həmçinin ”Banklar haqqında” Qanunda dəyişiklik olunması barədə (birinci oxunuş) qanun layihəsini təqdim edən komitə sədri bildirib: ”Sənəddə müflis bankın dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına ödəməli olduğu vergi, habelə digər məcburi ödənişlərin heç bir müddət məhdudiyyəti tətbiq edilmədən tam məbləğdə ödənməsi təklifi irəli sürülür”.



Sonra parlamentin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti iki məsələsi Milli Məclisin qərar layihələridir. Bu layihələr Milli Məclisin və Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası ilə bağlıdır. O diqqətə çatdırıb ki, həmin qərar layihələri bu gün müzakirə olunacaq, lakin bu iki məsələ bu gün yox, büdcə zərfinə daxil olan digər sənədlər üçüncü oxunuşda təsdiqlənən zaman onlarla birlikdə qəbul ediləcək.

Parlamentin işlər müdiri Firudin Hacıyevə Milli Məclisin 2024-cü il üçün xərclər smetası haqqında bildirib ki, 2024-cü ilin dövlət büdcəsində parlamentin və onun Aparatının saxlanılması üçün 50 milyon 919 min 10 manat vəsait nəzərdə tutulub. Xərclər smetasının ümumi dəyərinin 75,12 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir. O, parlamentin inzibati binasının saxlanması, mühəndis qurğularına və digər avadanlıqlara xidmətin göstərilməsi, habelə Milli Məclisin qanunvericilik və təmsilçilik fəaliyyətinin, parlament tərəfindən keçirilən beynəlxalq səviyyəli tədbirlərin təminatı kimi məsələlər üzrə cari ildə görülən və növbəti ildə planlaşdırılan işlər barədə məlumat verib. Məsələ ilə bağlı deputatlar Aydın Mirzəzadə, Sabir Rüstəmxanlı və Hikmət Məmmədov fikirlərini bildiriblər, qeydlərini səsləndiriblər.

Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihəsi barədə məlumat verən Palatanın sədri Vüqar Gülməmmədov bildirib ki, palatanın 2024-cü il üçün xərclər smetası 11 milyon 424 min 588 manat məbləğində nəzərdə tutulur. Bu da cari ildən 798,6 min manat və ya 8 faiz artıqdır. Palata sədri bunun səbəbinin Naxçıvan Muxtar Respublikası üzrə Palatanın İdarəsinin növbəti ildə mərkəzləşdirilmiş qaydada maliyyələşməsi ilə bağlı olduğunu deyib. Palatanın növbəti il üçün nəzərdə tutulmuş xərclərinin təxminən 91 faizi əməkhaqqı xərcləridir. Məsələ ilə bağlı deputat Fazil Mustafa öz fikirlərini diqqətə çatdırıb.

Sonra Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəliyin 15-ci məsələsi Azərbaycan və Türkiyə qardaşlığının və dostluğunun növbəti nümunəsi olan bir sənəddir. S.Qafarova ”Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi”in təsdiq edilməsi barədə qanun layihəsinin parlamentə təqdim edildiyini söyləyib. O qeyd edib ki, ”Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələbinə əsasən, bu qanun layihəsi bir oxunuşda baxılıb, qəbul ediləcək. Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa həmin qanun layihəsi barədə məlumat verib. O, bu məsələnin Azərbaycan dövləti ilə Türkiyə arasında olan qardaşlıq prinsiplərinə əsaslandığını deyib. Bildirilib ki, Türkiyənin Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb.

Saziş Kahramanmaraş vilayətində baş verən zəlzələdən zərər çəkmiş bölgələrin birində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi layihəsinin icrası ilə bağlıdır. Həmin layihənin həyata keçirilməsi məqsədilə müvafiq məbləğdə vəsait Azərbaycan Respublikası Hökuməti tərəfindən ayrılacaq, təyin olunmuş icraçı qurum tərəfindən inşa olunacaq bina və qurğular Türkiyə Respublikası Hökumətinə əvəzsiz olaraq veriləcək.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məsələ ilə bağlı çıxışında sənədin 2 il müddətinə bağlandığını və bu müddət ərzində qeyd olunan infrastruktur layihələrin həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib. O, rəhbərlik etdiyi komitənin qanun layihəsinə müsbət rəy verdiyini söyləyib. Məsələ ətrafında müzakirələrdə çıxış edən deputatlar Musa Qasımlı və Hikmət Məmmədov təqdim olunan sənədin Azərbaycan-Türkiyə münasibətlərinin möhkəmləndirilməsində əhəmiyyətindən danışıblar. Sonra bu qanun layihəsi də səsə qoyularaq qəbul edilib.

# YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin 40-cı ildönümü münasibətilə keçirilən rəsmi tədbirlərdə iştirak edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) səfəri çərçivəsində noyabrın 15-də ŞKTC-nin 40-cı ildönümü - Cümhuriyyət bayramı münasibətilə təşkil olunan rəsmi tədbirlərə qatılıb.**

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın təbrik qəbulunda və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkü anma mərasimində iştirak edən YAP nümayəndə heyəti Kipr Türk xalqının azadlıq mübarizəsinin öndərlərindən olan Fazil Küçükün adını daşıyan Bulvarda təşkil edilmiş təntənəli Cümhuriyyət bayramı mərasimini izləyib.

Sonra YAP nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstelin adından verilən rəsmi nahara qatılıb.

Daha sonra nümayəndə heyəti Azərbaycandan Xəzər Universitetinin də komandasının təmsil olunduğu "15 Noyabr - Universitetlərarası Cümhuriyyət Kuboku" basketbol yarışının mükafatlandırma mərasimində iştirak edib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov I yeri tutmuş komandaya kubok və nişanları təqdim edib.



Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın adından verilən rəsmi ziyafətdə iştirak edib.

Bununla da Yeni Azərbaycan Partiyası nümayəndə heyətinin Şimali Kipr Türk Cümhuriyyətinə səfəri başa çatıb.











# Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı mandatının daha bir il uzadılmasına dair qanun layihəsi TBMM-də qəbul olunub

**Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı mandatının noyabrın 17-dən etibarən daha bir il uzadılmasına dair qanun layihəsi Türkiyə Böyük Millət Məclisində (TBMM) qəbul olunub. Qanun layihəsi TBMM-ə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın imzası ilə göndərilib.**

Qeyd edək ki, qanun layihəsində işğal altındakı torpaqlarının azad olunması uğrunda mübarizədə qazandığı uğur və bunun nəticəsində bölgədə yaranan yeni şərtlərlə bağlı Azərbaycanın Ermənistan və Rusiya ilə 2020-ci il noyabrın 10-da imzaladığı üçtərəfli Bəyanatda nəzərdə tutulan fəaliyyətlərin davam etdiyi bildirilib.

Azərbaycanın bu il sentyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirlərindən sonra Qarabağdakı qeyri-qanuni separatçı birləşmələrin və onlara bağlı silahlı qrupların fəaliyyətinə tamamilə son qoyulduğunun qeyd edildiyi sənəddə Azərbaycan ilə Ermənistan arasında hələlik sülh razılaşması imzalanaraq məsələnin yekun həllinə gəlinmədiyi diqqətə çatdırılıb.



Qanun layihəsində beynəlxalq hüququn normaları və qanuni suverenlik haqları əsasında ərazi bütövlüyü də daxil olmaqla, bütün hüquqlarını müdafiə edə bilməsi üçün prosesin əvvəlindən etibarən Azərbaycana güclü dəstək verən Türkiyənin bölgədə sülhün və sabitliyin qorunması, möhkəmləndirilməsi və bunun asanlaşdırılması üçün iqtisadi infrastrukturun inşasına mühüm töhfələr verildiyi xatırlanıb.

Eyni zamanda, qeyd olunub ki, Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin də xidmət etdiyi Birgə Monitorinq Mərkəzinin fəaliyyəti uğurla davam edir və Türkiyə Mərkəz vasitəsilə bölgənin təhlükəsizliyinə, eləcə də tərəflər arasında etimadın qurulmasına töhfə verir.

# Eşqim, məhəbbətim, Laçınım mənim!

*Gözün aydın ay Laçın,*
*Gözün aydın, Həkəri!*
*Bəzən geri dönürmüş*
*Tarixin də təkəri.*

Yaşlılar görmüşlər tarixin geri dönən təkərini, biz gənclərə də nəsib oldu bunu görmək. Laçına-buranın həqiqi sahiblərini görməyə yollanarkən yolboyu öz-özümə pıçıldadığım bu sözlərin fonunda həm də hər bir azərbaycanlının qan yaddaşına həkk olunan tarixlərdən biri-1992-ci ilin 18 mayını da xəyalımdan keçirdim. Həmin tarixdə Laçın rayonu ermənilər tərəfindən işğal olunmuşdu. Laçının qocalı-cavanlı, uşaqlı-böyüklü sakinləri amansızlıqla ata-baba yurdundan qovulmuş, məcburi köçkün həyatı yaşamağa vadar edilmişdi.

Laçının dağ vüqarlı dağlarına baxdıqca ürəyim də dağa dönürdü. Tarixin təkərinin bu qədər dönməsi, Laçını yenidən bizə bəxş etməsi üçün Allah dəfələrlə şükür etdim. Eyni zamanda qəlbimə qürur hissi də doldu. Çünki Laçın işğaldan döyüşsüz azad edilmişdi. Azərbaycan ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etmişdi. Müharibədə əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən 2020-ci ilin 1 dekabr tarixində Laçın rayonu Azərbaycana təhvil verilmişdi. Bu, dövlətimizin başçısının 17 illik fəaliyyətinin, Qarabağın və Şərqi Zəngəzurun işğal altında olan ərazilərinin azad olunması üçün səylərinin nəticəsi idi.

***

Laçına qədər yolumuz Azərbaycanın Füzuli, Zəngilan, Qubadlı kimi dilbər guşələrindən keçirdi. Hüzn, həyəcan, eyni zamanda sevinc və qürur hissləri məni ağuşuna almışdı. Yolboyu erməni vandalizminə məruz qalmış yaşayış məskənlərini, tikililəri görmək hər bir azərbaycanlı kimi, mənim də qəlbimi dağlayırdı. Bununla belə dövlətimizin qısa müddət ərzində gördüyü quruculuq-abadlıq işləri, yenidən bərpa edilmiş infrastrukturlar insana necə də xoş təəssürat bağışlayır. Həqiqətən də işğaldan azad olunmuş torpaqlarımız xarabalıqdan cənnətə çevrilir. Ona görə də ermənilərin əsəri olan həmin dağıntılardan bəzilərinin bundan sonra da indiki şəkildə qalmasını istəyərəm. Qoy yurdumuza ayaq basan hər kəs iki dövlət arasındakı fərqi öz gözləriylə görsün. Azərbaycan xalqı daim qurub yaratmağın, gözəlləşdirməyin, abadlaşdırmağın tərəfdarı olub. İstər Cəbrayıl, istər Zəngilan, istər Füzuli, istər Şuşa, elə istərsə də mənim gedəcəyimizi bildiyim andan həyəcanla gözlədiyim Laçında bunu müşahidə etmək mümkündür. Gələcək illərdə də işğalçı Ermənistanın viran qoyduğu bütün yaşayış məntəqələrində abadlıq və firavanlıq hökm sürəcəkdir.






Yavaş-yavaş Laçına doğru irəlilədikcə gözümü səmadan çəkə bilmirdim. Buludlar belə fərqli bir ahəngdəydi. Doğrudur, hələ ki daşlı, təmirsiz olan yollarla irəliləməli olduq. Amma şəxsən məni bu, narahat etmədi. Vətəndə, xüsusilə 30 il düşmən tapdağı altında qalmış, azadlığına qovuşmuş torpaqlarda hər şey insana xoş gəlir. Keçən hər bir dəqiqədən zövq almağa çalışırdım. Çünki bilirdim ki, mən neçə insanın arzusunu yaşayır, gözəl Laçının canlı şahidi olurdum.

Laçının göz bəbəyi Həkəri çayına yaxınlaşdıq. Həqiqətən də eşitdiyim kimi, çox gözəl görünürdü. Gözəlliyi ilə ətrafa ayrıca bir rəng qatırdı. Oxumuşdum ki, uzunluğu 113 kilometr, hövzəsinin sahəsi 2570 kvadratkilometrdir. Kiçik Qafqazın Azərbaycan daxilində Tərtərçaydan sonra (Bazarçayla birlikdə) ikinci böyük çayıdır. Dağların arasından şaqqıltı ilə axan Həkəri başlanğıcını Mıxtökən silsiləsinin cənub yamacından, Şiştəpə zirvəsindən 3,5 kilometr şərqdə 2580 metr yüksəklikdən alan Şəlvəçay və Hocazsuçay çaylarının qovuşmasından əmələ gəlir, Zəngilan rayonunda Araz çayına birləşir. Həkəriyə tamaşa edə-edə bunları yada salmaq da xüsusi bir zövq verirdi mənə...

***

Noyabr ayının ortalarında olmağımıza baxmayaraq maşının şüşələri tamamilə açıq şəkildə yolumuza davam edirdik. Çünki Laçına daxil olduğumuz andan etibarən təmiz dağ havası bizi valeh etmişdi. Bu an düşünürdüm ki, kaş havadan ailəmə, rəfiqələrimə də apara bilərdim, çünki onun gözəlliyini olduğu kimi vəsf etməyə ifadə tapmayacaqdım.

Hələ yolboyu sıldırım qayaların, uca dağların arxasından bizə görünüb çəkilən günəşin batışının da şahidi olduq. Heç nə düşünmədən doyunca izləyirdim. Sanki unutmamaq üçün gözlərimlə hər anın fotosunu çəkirdim. Çünki elə bir smartfon yoxdur ki, bu gözəllikləri olduğu kimi əks etdirsin. Doğrusu, o yerləri unutmaq da mümkün deyil heç.



Azərbaycanın ən qədim yaşayış yerlərindən biridir Laçın. İşğal dövründə ermənilər tərəfindən xarabalığa çevrilən bu qədim yurdda Zəfərdən sonra dövlətimiz tərəfindən geniş tikinti-quruculuq işləri həyata keçirilir. Bu gün Laçın inkişaf edir, gözəlləşir, ən əsası da azad nəfəs alır.

Şəhəri gəzib-dolandıqca aparılan abadlıq-quruculuq işlərinə baxdıqca insan qürur hissi keçirir. Yenilənən yollar, tikilən binalar, salınan parklar, müasir görünüşə malik dövlət əhəmiyyətli obyektlər, müasir infrastruktur Laçın şəhərini müasir görkəmə bürüyür.

Yeni evlərin gözəl dizaynı və mənzərəsi baxanları heyran edir. İllərdir işğalın ağrıacısını çəkən bu qədim Azərbaycan yurdu sanki öz sakinlərinin qayıdışına sevinir, onları təbiətinin gözəlliyi ilə salamlayır, göz qamaşdırır.

Artıq arzuları gerçək olan laçınlılar səhəri Laçının səfalı havasını ciyərlərinə çəkərək, dağlar qoynunda yerləşən gözəl təbiət mənzərəsini seyr edərək açır. Onlar üçün illər öncə yarımçıq qalan arzular yenidən pərvazlanıb. Kimisi gənclik illərini, kimisi uşaqlıq illərini qoyub çıxmışdı Laçından. İndi doğma yurduna qayıdan ahıl şəxslər də özünü gənc kimi hiss edir. Onlar bir vaxtlar yaşadıqları doğma evlərinə qovuşublar.

REPORTAJ

*Ardı Səh. 6*

# Eşqim, məhəbbətim, Laçınım mənim!




Əvvəli Səh. 5

Elə "1 Dekabr" küçəsinin girişindəki evdə yaşayan İpək nənə də vaxtilə böyüyüb boya-başa çatdığı həmin evə qayıdanlardandır. Biz həyətə daxil olanda İpək nənə oğlunun əkdiyi gülləri sulamaqla məşğul idi. Adı kimi özü də ipək nənə bizi elə mehriban və səmimi şəkildə qarşıladı ki, sanki illərdi bir evin adamıyıq. 45 yaşında Laçını tərk etmək məcburiyyətində qalan nənəmiz Vətəninə qayıtdığı üçün çox sevincli olduğunu bildirdi: "Bakı da bizim yerimiz-yurdumuzdur, amma Laçın Vətənimizdir. 30 il əvvəl çıxdığım ev indi bizə təmir olunaraq geri qaytarılıb. O vaxt 4 subay övladımla buranı tək etməyə məcbur qalmışdım. İndi isə oğlum, gəlinim, nəvələrimlə geri dönmüşəm. Oğlum yaşıllaşdırma müəssisəsində, gəlinim isə məktəbdə müəllimə işləyir". Hələki Bakıda yaşayan digər iki oğlunun da təzəlikcə Laçına səfər etdiyini və oradan ayrılıb getmək istəmədiklərini deyən İpək nənə bizi çay içməyə dəvət etsə də, görməli olduğumuz yer çox, vaxtımız isə az olduğundan təklifini qəbul edə bilmədik. Yeri gəlmişkən, İpək nənənin həyətində insanı möhtəşəm mənzərə qarşılayır. Hər gün belə gözəl mənzərə ilə qarşılaşan insanın ruhu da cavan qalar. Elə İpək nənə kimi.

Maşını orada saxlayıb yola piyada davam etdik. Şəhərdə görülən işlərə ötəri nəzər salmaq yerinə, diqqətlə baxmağı seçdik. Aparılan tikinti-bərpa işləri sayəsində Laçın öz laçınlıq çağlarına geri qayıdır və doğma sakinlərini qoynuna almağa davam edir. Evlərlə bərabər, şəhərdə digər infrastruktur işlər də yüksək səviyyədə yerinə yetirilib. Şəhərin işıqlandırılma sistemi, su-kanalizasiya xətləri yenidən bərpa olunub. Milli memarlıq üslubu qorunmaqla tikililər müasir standartlara uyğun bərpa edilib. Əhalinin sosial durumunun yaxşılaşdırılmasına dair Dövlət Proqramına dəstək olaraq yeni iş yerlərinin yaradılması məqsədilə istehsal müəssisələrinin tikintisi, o cümlədən əhalinin məşğulluğu üçün müxtəlif müəssisələrin açılması işləri də davam edir.

Bakıdakılardan heç də geri qalmayan bir parkda dincimizi alırdıq ki, burnumuza ləzzətli ətir gəldi. Bu ətir bizi öz ardınca bir yerə apardı. Getdik, gördük ki, gözəl bir laçınlı xala sacın başında qutabları o üz-bu üzə çevirir. Elə ac vaxtımızda yerinə düşdü. Anam uşaq vaxtından məni elə öyrədib ki, harasa qonaq getdimsə, süfrəni qurmağa da, yığışdırmağa da ev sahibi qədər əl atıram. Dedim, Laçında da öz məharətimi göstərim. Ona görə də keçdim sacın başına. Qutablardan biri hazır olan kimi özümü saxlaya bilməyib dadına baxdım. Bu qədərmi fərq olar? Hələ bir vaxtlar 30 ilə yaxın həsrətini çəkdiyimiz bu torpaqlarda o yerlərin təbii otlarından hazırlanan qutab yeməyin bir ayrı ləzzəti var. Həm dadlı, həm də doyumlu qutabdan yeyəndən sonra yola davam etdik.



Yolda bir kişinin Afət adlı başqa bir kişini çağırdığını eşidəndə fürsətdən istifadə edib söhbətə qoşuldum. "Necəsən, Afət dayı?" deməyimlə başlayan söhbətimiz 15-20 dəqiqə çəkdi. Hələ Laçına ilk köçdə qayıdan Afət dayı hər kəsə bu yerləri görməyi arzu etdi.

Onun "Laçını bizə, bizi də Laçına geri qaytardıqları üçün Ali Baş Komandan İlham Əliyev və Birinci xanım Mehriban Əliyevaya, milli ordumuza təşəkkür edir, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı arzu edirəm. Mən yanvar ayında Laçına yenidən qayıdanda bu yerlər xarabalığa bənzəyirdi. Çaqqalların ulaşmasından qulaq tutulurdu. Sanki hər yerdə qaranlıq hökm sürürdü. Amma indi dövlətimiz doğma yurdumun hər qarışını gözəlləşdirib. Hər tərəf o qədər işıqlandırılıb ki, hətta axşam harasa gedəndə, maşının işığını yandırmaq da yada düşmür. Allah hər kəsə Laçını görməyi nəsib etsin",- sözləriylə söhbətimizi yekunlaşdırdıq.



Laçını görənlərdən biri də mən olduğum üçün çox şadam. Vətənimin nadir incilərindən olan Laçın insanın içini titrədir. Laçın səmasında dövrə vuran quşların cəh-cəhi musiqi notlarının bir-birini ahənglə izləməsinə bənzəyirdi. Bu düşüncələrlə fikrə getmişdim ki, birdən yolun sağ tərəfində maşını park edən taksi sürücüsü gördüm. Sürücü dayıdan işlərinin necə getdiyini maraqlanmaq üçün olduğum maşını saxlatdırıb qaçdım onun yanına. Mən yanına çatanda dayı təzəcə maşından düşmüşdü. Adının Raqif olduğunu biləndən sonra ondan işlərinin necə getdiyini soruşdum. Təqaüdə çıxdığını, amma bununla belə taksi fəaliyyəti ilə məşğul olduğunu deyən Raqif dayı işinin yağ kimi getdiyini qeyd etdi. Həmsöhbətim işinin onu qane etdiyini bildirdi: "Hər cür şəraitimiz, gözəl mənzərəmiz var. Buranın havasından başqa harada varsa, gedək orada qalaq. İllərdir ki, bu yerlərin həsrətində olmuşuq. 44 günlük müharibədə qazandığımız qələbə bizi dədə-baba yurdumuza qovuşdurdu". Raqif dayı müharibə zamanı Azərbaycan xalqının yumruq kimi birləşməsinin hələ də ona yuxu kimi gəldiyini də dilə gətirdi: "O birlik nəyə desəz dəyərdi. 30 ildir arzulayırdıq ki, heç olmasa, quş olub Laçın göylərində uçaq. Hansı ki indi biz bu torpaqlara ayaq basırıq". Söhbətimizin sonunda ona işində uğurlar arzulayıb sağollaşdıq.



***

Məğrur Laçını qarış-qarış gəzməyə davam etdik. Burada sanki hamı bir-birini tanıyır, hər kəs bir-birinə öz doğması kimi yanaşır. Bir günlük belə olsa, mən də laçınlı oldum.

"Bitdi o nisgili, vətən həsrəti,
Uca dağ, sərin su, yaylaq həsrəti,
Həkərim sevincdən coşub çağlayır,

Eşqim, məhəbbətim, Laçınım mənim"

mahnısı da dilimdən düşmürdü desəm, yalan olmaz.

Laçına səfərimi yekunlaşdırmaq üzrə olarkən həyətdə topla oynayan qız uşaqlarını gördüm. Laçına gəlib balaca laçınlıları dindirməsəm, olmazdı. Uşaqların arasında yerimi tutdum və öz boyum da balaca olduğu üçün onlardan heç seçilmədim. 8 və 11 yaşlı gözəl balalar Bakıda doğulub böyüsələr də, Laçına bir ayrı heyran olublar. Artıq 6 aydır ki, Laçına gəldiklərini və buranı daha çox sevdiklərini deyən Zəhra, İlknur və İpəkdən buradakı tədris haqqında



da maraqlandım. Uşaqlar laçınlı müəllimlərin onlara dərin bilik aşıladığını qeyd etdilər: "Müəllimlərimiz çox mehribandır. Məktəbimizdə bizim üçün hər cür şərait yaradılıb". Elə balaca mələklərin danışığından onlara dərin bilik aşılandığı hiss olunurdu. Sonda 11 yaşlı İpək Ali Baş Komandanın sözlərini xatırladaraq Laçının həqiqətən cənnət olduğunu dilə gətirdi.

Elə mən də Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə qatılıram. Azərbaycanın təkcə Laçını yox, hər bir bölgəsi cənnətə çevrilir. Odur ki, cənnət görmək istəyən buyurub Azərbaycana gələ bilər.

Deyirlər, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. Elə mən də Laçın haqqında çox eşitmişdim. Amma bircə dəfə görmək nəyə desəniz, dəydi. Məncə, Laçın hər bir azərbaycanlının gəlib öz gözləriylə görməli olduğu bir yerdir. Laçın Azərbaycandır! Qarabağ Azərbaycandır!




***Ləman Sərraf***

# Xalqa xidmətin mükəmməl örnəyi

*Neftçala rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Neftçala rayon təşkilatı noyabr ayının 15-də tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara və Ulu Öndərin anadan olmasının 100-cü ildönümü münasibətilə təşkil olunan rəsm sərgisinə baxıblar. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışıb, Azərbaycan tarixinin bütöv bir dövrünün dahi şəxsiyyətin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu deyib. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib.

Neftçala rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov bildirib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Ümummilli Lider bütün həyatını Azərbaycanın inkişafına həsr edib və Onun zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. M.Seyidov Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin tarixi uğurlara imza atdığını diqqətə çatdırıb.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Aydın Hüseynov söyləyib ki, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmizi məhv olmaq təhlükəsindən qurtardı: "Ümummilli Lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir dövlətə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq".

YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru Elnarə Akimova vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə liderlik missiyasını layiqincə yerinə yetirib. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub.

Sonra çıxış edən partiya veteranı Oqtay Kərimov və Ədəbiyyat qəzetinin baş redaktoru Azər Turan qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin Azərbaycan tarixindəki müstəsna rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən danışıblar.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**



2023-cü il noyabrın 15-də YAP Xızı rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Xızı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.



Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda bir qrup partiya fəalına təşəkkürnamə təqdim olunub.

AÇIQLAMA

## Rasim Quliyev:
## "Laçın Azərbaycanın qürur mənbəyidir"

**"Şükürlər olsun ki, hər bir laçınlının arzusu çin oldu. Bu gün öz doğma torpağımıza ayaq basa, bu torpaqlarda sərbəst şəkildə gəzə bilirik. Bu anları yaşamağı çox arzulamışdıq. Eyni zamanda, bu günləri yaşamaq bizə çox uzaq görünürdü". Bu sözləri SİA-ya açıqlamasında Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev deyib.**

"2022-ci ilin dekabrında Laçın dəhlizindən Azərbaycan təbii sərvətlərinin daşınmasına etiraz olaraq ekofəalların, ölkə ictimaiyyətinin və Qeyri-Hökumət Təşkilatlarının keçirdiyi aksiya zamanı bir il sonra dövlətimizin ərazi bütövlüyünün təmin olunacağını təsəvvür edə bilmirdik. Dövlətimizin təbii sərvətlərini talayanlar, bizə meydan oxuyanlar bugünkü gündə Azərbaycanın həbsxanalarındadır. Bu, Azərbaycan dövlətinin və ordusunun qüdrəti, Ali Baş Komandanın uzaqgörənliyidir",- deyə o əlavə edib.



R.Quliyev bildirib ki, Laçın Azərbaycan üçün həm mənəvi, həm geosiyasi baxımdan əhəmiyyət daşıyan bir məntəqədir: "Yolboyu Laçında görülən tikinti-quruculuq işlərinə nəzər yetirdikcə, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi Zəfər paradını xatırlayırdım. Həmin parad zamanı Ərdoğan "Ay Laçın, can Laçın" şeirini qısa da olsa boş yerə səsləndirməmişdi. Laçın Azərbaycan suverenliyinin simvolu, ərazi bütövlüyünü təmin edən mühüm qapılardan biridir. Sözün həqiqi mənasında, Laçın Azərbaycanın qürur mənbəyidir. Çox sevindiricidir ki, bu gün laçınlılar öz dədə-baba yurdlarında, öz doğma evlərində yaşayırlar".

***Ləman Sərraf***



# Multikulturalizm və tolerantlığın ünvanı

Azərbaycanın dünyada multikulturalizmin ən mükəmməl modelini yaratdığını dedikdə hansısa bir mübaliğə yaratmış olmuruq. Mövcud mühit artıq bu fikri söyləməyə insanı sövq edir. Ölkəmizin elə bir məkanı yoxdur ki, orada bu mühit ilə qarşılaşmayasan. Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, Nic və İvanovka kəndləri dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Qeyd edək ki, Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Qeyd edək ki, ümumiyyətlə, Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79 faizini azərbaycanlılar, 9 faizini tatlar, 6 faizini ləzgilər, 1,8 faizini yəhudilər, 1,4 faizini türklər, 1,4 faizini xınalıqlılar və 1,2 faizini digər xalqların nümayəndələri təşkil edir. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur. İnkar olunmaz faktdır bu gün Azərbaycanın ictimai-siyasi həyatında xristian, yəhudi etiqadlı vətəndaşlar yaxından iştirak edir, töhfələrini verirlər. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər verir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün tam bərabər hüquqa malikdirlər.

Belə bir mühitin formalaşdığı Azərbaycanda da hər il 16 noyabr Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Bu beynəlxalq gün YUNESKO-nun "Dözümlülük prinsipləri bəyannaməsi"ndə təntənəli şəkildə elan edilmişdir. Bəyannamə 1995-ci ildə təsdiq edilmişdir. Bəyannamədə dözümlülük (tolerantlıq) dedikdə, "dünya mədəniyyətlərinin zəngin müxtəlifliyi, bizim özünüifadə formaları və insan fərdiliyini ifadə etmək üsullarına hörmət, qəbul və doğru anlaşma" nəzərdə tutulur. Bəyannamədə "insanların öz təbiətinə görə xarici görünüşü, mövqeyi, danışığı, davranışı və dəyərləri baxımından fərqli olduqlarını, barışıq içində yaşamaq və fərdiliyini qorumaq hüquqlarına sahib olduqlarını" elan edir. Bəyannamədə insanlara qarşı dözümsüzlüyün yaratdığı təhdidlər araşdırılır, dözümsüzlüyə qarşı mübarizə metodları və proqramları təqdim olunur. 1997-ci ildə BMT Baş Assambleyası (A/RES/51/95 saylı qətnamə) da BMT-nin üzvü olan dövlətlərə bu Beynəlxalq Günü qeyd etməyi təklif etmişdir.

Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və vahid dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir. Ölkəmizdəki tolerantlıq mühiti Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin nəticəsidir, dilindən, din və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş bərabərhüquqlu və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında davamlı inkişaf edən ölkəmiz artıq dünyada multikulturalizm, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir daha göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

## AZƏRBAYCAN ƏHALİSİNİN TƏRKİBİ ETNİK, DİNİ, MƏZHƏB BAXIMINDAN ZƏNGİNDİR

Azərbaycanda mövcud olan bu modelin ən inkişaf etmiş ölkələrin ali məktəblərində tədris olunması, elmi mərkəzlərdə öyrənilməsi, təhlil edilməsi multikulturalizm Azərbaycanda həyat tərzi və dövlət siyasəti olduğunu bir daha təsdiqləyir. Çünki belə olmasaydı müxtəlif xalqların ölkəmizdə bir ailə kimi yaşamasına lazımi şərait yaradılmazdı. Azərbaycandakı multikulturalizmin və tolerantlığın dünyada alternativi yoxdur. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır və azad fəaliyyət göstərirlər. Yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində Azərbaycanda yaşaması ölkəmizə marağı daha da artırıb. Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına olaraq uyğun daha da möhkəmlənib, bu sahə də dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Xalqımızın özəlliyi, səmavi dinlərin tarixən ərazimizdə yayılması, VII əsrdən torpaqlarımızda bərqərar olmuş İslam dininin təlqin etdiyi ideallar Azərbaycanda müxtəlif dini və milli mənsubiyyətə mənsub insanların birgəyaşayışı sahəsindəki uğurlarını artıran məqamlardandır. Bu məkanda bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Təbii ki. müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilib ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmasına əlverişli zəmin yaradıb. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Həmin ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar. Sonralar Gədəbəy, Şamaxı, Bakı, Şəmkir ərazisində də alman lüteran kilsələri tikilib istifadəyə verildi. Bakıda - 28 May küçəsində yerləşən alman kilsəsi - Kirxa da onlardan biridir. Azərbaycanda yaşayan alman icması hər bazar günü bu kilsəyə gəlib, öz dualarını oxuyur, ibadət edir və söhbət aparırlar.

## "İŞĞAL ZAMANI 67 MƏSCİDDƏN 65-İ ERMƏNİSTAN TƏRƏFİNDƏN DAĞIDILMIŞDIR"

Belə bir ənənəyə sahib olan Azərbaycan təəssüf ki, erməni vandallarının təcavüzünə məruz qalıb. Mənbələrdə göstərilir ki, təkcə XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən silmişdilər. Qarabağda və Qərbi Azərbaycanda tarix və mədəniyyət abidələrinin dağıdılması, ermənilərin özbaşınalığı "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il konvensiyasına ziddir. Prezident İlham Əliyev çıxışlarında ermənilərin vandallıq əməllərini ifşa etmişdir. "İşğal dövründə Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində şəhər və kəndləri, bütün mədəni və dini abidələri qəsdən dağıdıb. Hətta qəbiristanlıqlar yerlə-yeksan edilib", - deyərək bildirib ki, Ermənistanın məqsədi əsrlər boyu həmin ərazilərdə yaşamış azərbaycanlıların izini silmək olub.

Cənab Prezident onu da bildirib ki, erməni mədəni irsi həm Bakıda, həm də Qarabağda mühafizə olunur: "Bununla belə, işğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən dağıdılmışdır. Bu barədə heç bir söz belə deyilmir. Onlar məscidlərimizdə donuz və inək saxlayırdılar, şəhərlərimizi və kəndlərimizi yerləyeksan ediblər".

Ziddiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Çağırışları ilə bütün dünya xalqlarına, bütün dünya dövlətlərinə Azərbaycanın bugünki həqiqətlərini bəyan edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrini görürlər. Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri keçirməklə, dünyanın diqqətini özünü cəlb edən Azərbaycan bu və ya digər tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Sülh içində yaşayan plüralist və demokratik cəmiyyətlər qurmaq üçün dağıdıcı cərəyanlara qarşı birlikdə mübarizə aparmağın vacibliyi əsas məsələ kimi bu və ya digər məsələr müzakirə olunur.

## BAKIDA ERMƏNİ KİLSƏSİ QORUNUB-SAXLANILIR

Ölkəmiz sülh və əmin-amanlıq şəraitində yaşayır. "Ölkəmizdə sabitliyin mənbəyi xalqımızın iradəsidir, xalqımızın seçimidir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən birinə çevrildiyini bildirib. Belə bir ölkə multikultural və tolerant dövlət kimi də tanınır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan multikulturalizm ideyasını irəli sürdüyü vaxtda, Ermənistan tərəfindən işğal dövründə saysız-hesabsız abidələrimiz dağıdılmışdır. Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli türbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Fuzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələr işğal dövründə erməni vandallığına məruz qalmışdı. Memar Kərbəlayi Səfixan Qarabağİ tərəfindən XIX əsrin ikinci yarısında Şuşa şəhərində inşa edilmiş Gövhər ağa məscidi erməni terrorunun qurbanına çevrilib. Ermənistanın işğalı nəticəsində saysız mədəni abidələr dağıdılmışdır. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Amma Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir.

Qubadlı rayonunun Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutudur. Ermənilərin bu əməli "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyası və "Silahlı münaqişələr zamanı mədəniyyət abidələrinin qorunması haqqında" Avropa Konvensiyasına tam ziddir. Onların etdikləri "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyası, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1972-ci il Konvensiyası ilə də ziddiyyət təşkil edir.

## XII ƏSR ABİDƏSİ QARACA ÇOBANIN QƏBRİ YANDIRILIB

Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. 2006-cı ilin iyununda ermənilərin işğal edilmiş Xocavənd ərazisində törətdikləri yanğınlar nəticəsində yaşı 800 il olan XII əsr abidəsi Qaraca Çobanın qəbri yanmışdır. Ermənilərin törətdikləri yanğınlar e.ə. II minilliyə aid olan Nərgiztəpə mədəni abidəsini külə döndərmiş, yanğının yaratdığı yüksək temperatur nəticəsində Qaraca Çobanın qəbri parça-parça olmuşdur. Yanğınlar nəticəsində qədim türk tayfalarına mənsub olan "Əfşarlar qəbiristanlığı" da məhv edilmişdir. Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Bütün bunlara baxmayaraq, Qarabağda və Şərqi Zəngəzurda olan tarixi dini abidələrimiz yenidən qurulur, təmir və bərpa olunur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Qəzza ilə bağlı 5 ssenari

**Qəzza zolağında İsrail və HƏMAS arasında döyüşlər hələ də davam etsə də, dünya mediası və ekspertləri ataşkəsdən sonra Fələstin ərazisinin taleyinin necə olacağını təxmin etmək üçün yarışır. Və getdikcə daha aydın olur ki, İsrail, müsəlman dünyası və ABŞ Qəzza zolağının gələcəyini tamam başqa cür görür. Mühasirəyə alınmış anklavda vəziyyətin inkişafı üçün ən çox müzakirə olunan 5 ssenari müəyyənləşib.**








## I ssenari: Qəzzanın İsrail tərəfindən işğalı

İsrail HƏMAS-a qarşı mübarizədə hərbi uğur əldə etsə də, onun radikal islamçı hərəkatı tamamilə məhv edə bilməyəcəyi sual olaraq qalır. Yaraqlıların yerin altına gedərək israillilərə qarşı mübarizəni davam etdirməsi riski böyükdür. Bu, Təl-Əvivin qarşısını almaqda qərarlı olduğu yəhudi dövlətinə qarşı yeni terror hücumları üçün zəmin yaradacaq. Bu baxımdan, ən çox müzakirə olunan variantlardan biri də İsrail tərəfindən Qəzza zolağında birbaşa hərbi işğalın bərpa olunmasıdır. Baş nazir Benyamin Netanyahunun son bəyanatı buna işarə edir: "Məncə, İsrail qeyri-müəyyən müddət ərzində Qəzza zolağında təhlükəsizlik üçün ümumi məsuliyyət daşıyacaq, çünki biz buna malik olmadıqda nə baş verdiyini görmüşük".

Digər tərəfdən, İsrail rəsmiləri Qəzzanı işğal etmək niyyətində olmadıqlarını dəfələrlə bəyan ediblər və müdafiə naziri Yoav Gallant kampaniyanın əsas məqsədi kimi hətta "İsraili Qəzza zolağında həyat üçün məsuliyyətdən azad etmək" adlandırıb. Təl-Əvivin Fələstin torpaqlarını işğal etməsinə təkcə ərəb dünyası ölkələri deyil, İsrailin Qərb müttəfiqləri də qarşı çıxır. ABŞ dövlət katibi Antoni Blinken açıq şəkildə bildirib ki, ABŞ İsrailin Qəzzaya nəzarət etməsinə icazə verə bilməz.

İsrailin özü də Qəzzanın ərəb əhalisi tərəfindən heç vaxt hakim rejim kimi qəbul edilməyəcəyini anlayaraq işğal rejiminə qayıtmaqda o qədər də maraqlı görünmür. Bundan əlavə, maliyyə məsələsi vacibdir. Ölkənin 2 milyona yaxın fələstinlini tam qəbul etməsi çox baha başa gələcək. Bununla belə, İsrail hakimiyyəti 2005-ci ildə Qəzzadan çıxarılmasının acı nəticələrini yadda saxlamağa məcburdur ki, bu da əslində, HƏMAS radikallarını hakimiyyətə gətirib. Və ən azı, anklavın müvəqqəti olaraq İsrail hərbçilərinin nəzarəti altında olması istisna edilmir.

## II ssenari: Mülki Fələstin Administrasiyası

Bir sıra ekspertlər Qəzza zolağının Fələstin siyasi qüvvələrinin nəzarətinə keçməsini ən real ssenari adlandırırlar (indi bu sektora müstəsna olaraq HƏMAS yarımhərbi qruplaşması nəzarət edir). Xüsusilə, ABŞ Dövlət Departamentinin rəhbəri Blinken bunu "ən ağlabatan qərar" adlandırıb. Hətta İsrail müxalifətinin lideri Yair Lapid belə deyib: "Nəticədə baş verə biləcək ən yaxşı şey Fələstin Administrasiyasının Qəzzaya qayıtmasıdır". Bununla belə, bu ssenarinin zəif tərəfləri də var. Anklav üçün məsuliyyəti hansı fələstinli siyasətçinin üzərinə götürə biləcəyi qətiyyən aydın deyil. Mahmud Abbasın başçılıq etdiyi Fələstin Milli Rəhbərliyi Qəzza zolağının idarəçiliyinə qayıda bilər, lakin o və onun FƏTH partiyası hətta onların nəzarəti altında olan İordan çayının qərb sahilində, daha radikal Qəzzanı bir yana qoyaq, son dərəcə qeyri-populyardır. Beynəlxalq dəstəyə malik ola biləcək digər mümkün konfiqurasiya qarışıq Fələstin mülki administrasiyasıdır. Bununla belə, müxtəlif Fələstin qüvvələrinin birləşməsi perspektivi hələ də qeyri-müəyyəndir və uzunmüddətli sabitliyə zəmanət vermir.

## III ssenari: Ərəb sülhməramlıları

Tez-tez müzakirə olunan ssenarilər arasında Qəzza zolağının ərəb ölkələrinin nəzarətinə keçməsi də var. Vaşinqtonun Yaxın Şərq Siyasəti İnstitutunun memorandumunda amerikalı analitiklər bildiriblər ki, "ictimai təhlükəsizlik və hüquq-mühafizə orqanlarına İsraillə sülh sazişi bağlamış beş ərəb dövlətinin - Misir, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn və Mərakeşin konsorsiumu rəhbərlik edə bilər".

Qərb mətbuatı hətta İsrail Xarici İşlər Nazirliyindəki mənbələrə istinadən yazıb ki, Təl-Əviv Misirə böyük ümid bəsləyir. Qahirə İsraillə sabit münasibətlər saxlayır və artıq 1948-1967-ci illərdə Fələstin anklavını idarə edib. Bununla belə, "Asia Times"ın yazdığı kimi, Misir Qəzzaya görə də maliyyə və siyasi məsuliyyəti öz üzərinə götürə bilməyəcək qədər yoxsuldur və Müsəlman Qardaşlar dü şərgəsindən olan cihadçılarla öz problemləri ilə məşğuldur. Təl-Əvivin Fələstin torpaqlarını işğal etməsinə təkcə ərəb dünyası ölkələri deyil, İsrailin Qərb müttəfiqləri də qarşı çıxır.

## IV ssenari: BMT mandatlı ofis

Nəzəri olaraq, hərbi əməliyyatlar başa çatdıqdan sonra Qəzza zolağında BMT-nin himayəsi altında müvəqqəti hökumət yaradıla bilər. Oxşar presedentlər var: 1999-cu ildə Təhlükəsizlik Şurasının qətnaməsi ilə Kosovo BMT-nin müvəqqəti administrasiyasının nəzarətinə verildi. Lakin belə bir ssenari demək olar ki, qeyri-real görünür: bunun üçün bütün böyük dövlətlərin yekdil beynəlxalq dəstəyi və BMT-nin özünün belə riskli avantüraya qoşulmağa hazır olması lazımdır. Bundan əlavə, belə bir ssenari əvvəllər BMT-ni HƏMAS-ı dəstəkləməkdə günahlandıran və bu qlobal arbitrin fəaliyyətinin indi "az faydası" olduğuna inanan İsrail tərəfindən mütləq düşmənçiliklə qarşılanacaq.

## V ssenari: Müstəqil Fələstinin yaradılması

Dünyanın əksər ölkələri, o cümlədən Rusiya müstəqil Fələstin dövlətinin yaradılmasını dəstəkləyir. Amma təəssüf ki, yaxın gələcəkdə bu variant qeyri-real görünür. ABŞ prezidenti Co Baydenin qeyd etdiyi kimi, "Suveren Fələstin dövlətinin yaradılması zəruridir, lakin bu nəticənin dəqiq necə əldə ediləcəyi istər ictimai, istərsə də özəl müzakirələrdə demək olar ki, müzakirə olunmur". Bütün tərəflərin bununla razılaşdığını və maneə yaratmadığını təsəvvür etsək belə, dağıdılmış Qəzza zolağının yerində necə suveren dövlətin yaradıla biləcəyi tamamilə qaranlıq qalır.

## İsrailin mənfi təcrübəsi...

Qəzza zolağının gələcəyi ilə bağlı sualın cavabı İsrailin əsas məqsədinə - HƏMAS-ı məhv etməyə nail olub-olmamasından asılıdır. Əgər bu baş verərsə, o zaman ən çox ehtimal olunan iki ssenari Qəzzanın Fələstin



Administrasiyası və ya tam və ya qismən işğalın nəzarətinə keçməsidir. Ola bilsin ki, işğal şəraitində BMT-nin humanitar agentlikləri Fələstin əhalisinin qalan hissəsinin həyat təminatı məsələlərinin həllinə cəlb olunacaq. Qəzzanın BMT sülhməramlılarının, ərəb ölkələrinin və ya regiondankənar güclərin nəzarətinə verilməsi praktiki olaraq mümkün deyil. İsrailin sülhməramlıların olmasına baxmayaraq, Hizbullah qüvvələrinin fəal şəkildə fəaliyyət göstərdiyi Cənubi Livandan qoşunların çıxarılmasında mənfi təcrübə var, buna görə də orada vəziyyət ya birbaşa İsrail qoşunları, ya da İsrailin Fələstin Administrasiyasında yaxşı qurduğu kəşfiyyat xidmətləri tərəfindən idarə olunacaq. Nə Misir, nə də digər ərəb ölkələri Qəzzadakı vəziyyətə görə məsuliyyəti öz üzərinə götürməyə tələsmir, çünki bu, heç bir siyasi divident vəd etmir, yalnız qaçqınlar və təhlükəsizliklə bağlı problemlər yaradır. Bununla belə, böhrandan sonra Fələstin-İsrail nizamlama prosesi bərpa olunarsa, Körfəz monarxiyaları Qəzzanın bərpasına sponsorluq edə bilərlər.

Fələstin dövlətinin yaradılması perspektivlərinə gəlincə, indi bir-birinə zidd olan iki fikir var. Birinə görə, İsrail HƏMAS-ın məğlubiyyətindən sonra ərəb dünyası ilə münasibətləri normallaşdırmağa davam etmək və neft monarxiyalarını Qəzzanın bərpasına pul yatırmağa inandırmaq üçün fələstinlilərə müəyyən güzəştlər edə bilər. Başqa bir nöqteyi-nəzərdən İsrail 7 oktyabr hadisələrindən o qədər qorxub ki, yaxınlıqdakı heç bir Fələstin dövlətinə, hətta silahsızlaşdırılmış dövlətə də dözməyəcək.

Bəs onda nə etməli? Sual hələ də açıq qalır...

**V.VƏLİYEV**

RAKURS



# Andrey Bıstritski:
# "İrəvanın və Qərbin Cənubi Qafqaz siyasəti iflasa uğrayıb"







**"Valday" Beynəlxalq Diskussiya Klubunun İnkişaf və Dəstək Fondunun İdarə Heyətinin sədri Andrey Bıstritski "Moskva-Baku" portalına müsahibəsində Qərbin Rusiya-Ermənistan münasibətlərindən öz oyunu üçün istifadə etməsi və Azərbaycanla Ermənistan arasında normallaşma perspektivləri barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Ermənistanın baş naziri KTMT Kollektiv Təhlükəsizlik Şurasının Minskdə keçiriləcək iclasına getməkdən imtina etdi. Xatırladığımız kimi, bundan əvvəl İrəvandan dəfələrlə MDB tədbirlərində iştirakdan imtina edilmişdi. Srağagün Brüsseldə çıxış edən Ermənistan Təhlükəsizlik Şurasının katibi İrəvanın Qərblə bütün istiqamətlərdə münasibətləri dərinləşdirmək niyyətində olduğunu və respublikanın bloklara qoşulmayan ölkə olmaq niyyətində olduğunu bildirib...***

- Biz Ermənistanın davamlı siyasi gedişlərini görürük, görünür, ya Qərbin rəğbətini qazanmaq, ya da Ermənistandakı auditoriyanın hansısa hissəsinə təsir etmək, ya da hər ikisidir. Ermənistan Respublikası indi öz siyasi trayektoriyasını dəyişə bilmir.

Yəqin ki, həqiqətən istəsən, Moskva ilə İrəvan arasında münasibətləri poza bilərsən. Lakin Rusiya ilə Ermənistan arasında münasibətləri pozmaq üçün kifayət qədər uzun sistemli səylər lazımdır. Ermənistanda bu cür siyasətlə məşğul olanlar və onlara kömək edənlər başa düşməlidirlər ki, sadəcə demarşlar iki ölkə arasında tarixən yaxın münasibətlərə real təsir göstərə bilməyəcək, çünki ortaq əlaqələr həddən artıq çoxdur.

Hələlik Ermənistan hakimiyyətinin Qərbi regiona cəlb etmək və Rusiyadan uzaqlaşmaq məqsədi mənə sırf şəxsi məqsəd kimi görünür. Orada heç bir böyük siyasət haqqında düşünmürlər. Bəli, hazırkı baş nazirin respublikanı Rusiyadan ayırmaq üçün məqsədli şəkildə hakimiyyətə gətirildiyinə dair fikirlər var. Məncə, Paşinyan erməni xalqının dəstəyi ilə hakimiyyətə gəlib. Onun bu dəstəyi necə istifadə etməsi başqa məsələdir. Siyasət mümkün olanı etmək sənətidir.

Ermənistan hökumətinin nümayəndələrinin bloklara qoşulmayan ölkə olmaq və KTMT-dən çıxmaq niyyəti ilə bağlı bəyanatlarına gəlincə, siyasətçilər çox şey deyirlər. Sözlər və real hərəkətlər iki fərqli şeydir. Sözlərin arxasında ictimai rəyə, həmkarlarına, başqa ölkələrə təsir etmək istəyi ola bilər... Şübhə etmirəm ki, Paşinyan Ermənistan cəmiyyətinin qismən qərbyönlü, qismən də antimüxalifət olan hansısa hissəsini öz ətrafında hansısa yolla konsolidasiya etməyə çalışır. Bu hissənin nə qədər böyük olması ayrı sualdır, onların əhval-ruhiyyəsinin nə dərəcədə sabit olması da ayrı bir sualdır. Amma Ermənistanın hakim elitasının Qərb elitaları ilə sıx şəxsi münasibətlər qurmağa çalışması faktdır.

Əgər Ermənistan KTMT-dən çıxıb MDB-də qalmasını birmənalı və anlaşılmaz etsə, onun coğrafi və siyasi mövqeyinə görə inkişafı çox çətin olacaq. Bu, ölkə üçün çox böyük problem olacaq. Bunsuz Ermənistanın inkişafı kifayət qədər çətindir. Və digər MDB dövlətləri ilə münasibətləri çətinləşdirən KTMT-dən çıxmaq situasiyasını idarə etmək üçün Ermənistan rəhbərliyinə filiqran sənəti və çox dəqiq hesablamalar lazımdır.

İrəvan, nəhayət, Rusiya ilə mübahisə etsə, ağlabatan sual yaranacaq: necə qarşılıqlı əlaqə, ünsiyyət, təhlükəsizlik, logistika qurula bilər... Sonda Ermənistana qayıqla getməyəcəksiniz. Ermənistanın inkişafında vəziyyət çox şeyi diktə edəcək. Və respublikanın istənilən rəhbərliyi, hakimiyyətdə olanlardan, hansı siyasi addımlar atmasından asılı olmayaraq, sadə insanların mənafeyini diqqətdən kənarda qoya bilməyəcək. Buna görə də, bir şəkildə fırlanmalı olacaqlar. Gözləyək görək.

Qərbin Ermənistandan istifadə etməkdə məqsədi müntəzəm olaraq Rusiya əleyhinə olan hər şeyi dəstəkləməkdir. Hələlik, İrəvan Rusiyaya qarşı demarşlar edəcək, Qərb isə Ermənistanı dəstəkləyəcək.

***- Vladimir Putin son vaxtlar mütəmadi olaraq Qərbin Rusiyanı MDB tərəfdaşlarına qarşı sıxışdırmaq cəhdlərinə diqqət çəkir. Və açıq şəkildə eyni ölkələr üçün mübarizə gedir. Biz bir tərəfdən Qərbin Cənubi Qafqaza, Mərkəzi Asiyaya, Afrikaya, Latın Amerikasına səfərlərini görürük. Digər tərəfdən, bu gün bu, Rusiyanın kəskin maraqları zonasıdır. Rəqiblərdən daha çox Çinlə əlaqə üçün mübarizə var...***

- Bəli, Qərbin Cənubi Qafqaz siyasəti böyük geosiyasi oyunun elementidir. İndi Qərb dövlətləri Rusiyaya zərər vurmaq, təsir etmək üçün bütün imkanlardan istifadə edir, fürsətdən istifadə edərək onun müttəfiqləri, tərəfdaşları və digər dövlətlərlə münasibətlərini pisləşdirməyə çalışırlar. Belə bir siyasət aparılır, həm də bu kontekstdə aparılır. Ermənistana münasibətdə isə o, təkdir. Amma başa düşmək lazımdır ki, başqa oyunçular da var. Ermənistanın qlobal baxımdan rolu o qədər də böyük deyil. O, Qərb üçün siyasi subyekt kimi deyil, o əsasən alət, bəhanə kimi çıxış edir. Çoxlu belə hallar yaranır. Ermənistandakı vəziyyətin batdığı matris çox böyük və çoxvektorludur.

Qərbin son məqsədi öz hegemonluğunu bərpa etməkdir. Bu son məqsədə gedən yolda maneələr var, o cümlədən Rusiya. Qərbin əsas məqsədlərindən biri və yaxın gələcək üçün taktiki hədəfi Rusiyanın təcrid olunmasıdır.

Qərbin əsas məqsədlərindən biri və yaxın gələcək üçün taktiki hədəfi Rusiyanın təcrid olunması və tərəfdaşları ilə çəkişmə cəhdidir. Qlobal strateji məqsəd dünyanı Qərb üçün əlverişli prinsiplər üzərində qurmaqdır. Daim bu haqda danışır və hər kəsin bu prinsiplərlə yaşamasını təmin etməyə çalışırlar. Belə çıxır ki, onların baxışı idealdan çox uzaqdır.

Hələlik Qərb Rusiyanın müttəfiqləri ilə toqquşması məsələsində o qədər də uğur qazanmayıb. Qərb üçün də kəskin və riskli mürəkkəb, çoxvektorlu geosiyasi oyun gedir. Burada çətinliklər var. Siz başa düşməlisiniz ki, Qərb birləşməkdən uzaqdır. Aİ-də fərqli fikir və hisslərə malik ölkələr var.

***- İlin sonuna kimi Aİ Ermənistan-Azərbaycan sərhədində strukturun missiyasında Aİ-nin bütün 27 ölkəsinin iştirakı məsələsini qaldıracaq. Fransa artıq Ermənistana hərbi texnika verir, silah da verəcək. Qərb funksionerlərinin Ermənistana sonsuz səfərləri bitmir...***

- Aİ heç vaxt həqiqətən Azərbaycana qarşı çıxmayacaq. Heç vaxt. Üstəlik, Türkiyə faktorunu nəzərə alaraq. Niyə hər şeyi özünüzə görə pis hesab edirsiniz? Ona görə də Ermənistan üçün burada nəyəsə arxalanmaq çətindir. Onun edə biləcəyi maksimum şey demarşları nümayiş etdirməkdir. Anti-Rusiya və anti-Azərbaycan. Amma Aİ Ermənistanla bağlı Azərbaycan və Türkiyə ilə ciddi mübahisə etməyəcək. Ermənistan hakimiyyəti nə deyir desin, Rusiya heç bir şəkildə Ermənistanın həyatına və inkişafına mane ola bilməz, ancaq kömək edə bilər...

***- Aİ-nin obyektiv olaraq Azərbaycanın əleyhinə getməyəcəyini deyirsiniz... Amma bununla yanaşı, Avropa Parlamenti Azərbaycan əleyhinə qətnamələr qəbul edir. Srağagün Aİ diplomatiyasının rəhbəri Josep Borrell Azərbaycana qarşı növbəti təhdidlər edib. Bakı isə, son bir ayda Avropa İttifaqının vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı iki görüşdən imtina edib.***

- Avropa Parlamentinin bəyanatlarının heç bir əhəmiyyəti yoxdur. O, heç bir nəzarətedici rol oynamır. Josep Borrell hər şeyi deyə bilər, siz artıq onun qəribə ifadələrinin kitabxanasını tərtib edə bilərsiniz.

***- Qlobal geosiyasi təlatümlər və Qərbin Moskvanı qonşularına qarşı qoymaq cəhdləri fonunda Azərbaycan bu gün Rusiyanın tərəfdaşı kimi necə görünür?***

- Azərbaycanla tərəfdaşlıq ümumilikdə müsbət inkişaf edir, fəal əlaqələr müşahidə olunur. Azərbaycan rəhbərliyi isə hər bir suveren dövlətin rəhbərliyi kimi öz milli maraqlarından çıxış etsə də, Rusiya ilə münasibətlərdə konstruktivlik və məsuliyyət, şəffaflıq nümayiş etdirir. Gələcək üçün kifayət qədər ümumi strateji əhəmiyyətli layihələrimiz var.

***- İrəvanın Rusiyanın vasitəçiliyi ilə bunun baş verməsini açıq şəkildə istəmədiyi, Qərbin burada vasitəçiliyini təbliğ etməyə çalışdığı bir şəraitdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalamaq olarmı...***

- Azərbaycana aydındır ki, Ermənistan özünü qeyri-sabit aparır. Müqavilə iki tərəfin razılığıdır. Amma Azərbaycan və Ermənistan tam razılığa gələ bilmir. Nəzəri cəhətdən Ermənistan Azərbaycanın şərtləri ilə sülh müqaviləsi imzalaya bilərdi, amma manevr etməyə çalışır. Bunun nə ilə nəticələnəcəyi hələ bəlli deyil.

Ermənistanın həqiqətən nə istədiyini mühakimə etmək çətindir. Biz Ermənistan rəhbərliyinin planlarının bütün incəliklərini bilə bilmərik. Amma görünən odur ki, Ermənistan ikili oyun aparır. Sözdə respublika rəhbərliyi imza atmağa hazırdır, amma reallıqda belə deyil.

***Tərcümə - Elçin Bayramlı***

# Fransa yeni koloniya axtarışında...

## Cozep Borel nümunəsində simasını itirən Avropa islamofobiyanın və antisemitizmin vətəninə çevrilib

Vətən müharibəsi və lokal antiterror tədbirləri sayəsində öz ərazi bütövlüyünü və suverenliyini təkbaşına bərpa etmiş Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlara münasibət göstərir ki, Qərb nəinki hadisələrə ikili standartlarla yanaşmasından əl çəkməyib, üstəlik mövcud sülh perspektivinə hər vəchlə mane olmağa çalışır. Ədalətsiz və təhrikedici davranışlar Ermənistanda revanşizm meyillərini alovlandıra və regionu yenidən müharibə təhlükəsi ilə üz-üzə qoya bilər. İndi daha şübhə doğurmur ki, Fransanın Ermənistanı silahlandırması, Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin noyabrın 13-də Brüsseldə keçirilən mətbuat konfransında Azərbaycan əleyhinə səsləndirdiyi fikirlər, regiondakı vəziyyəti qəsdən təhrif edən açıqlamaları, ABŞ Dövlət Departamentinin ermənipərəst bəyanatları məqsədli şəkildə vəziyyəti gərginləşdirməyə hesablanıb. Bəs Qərbin bu məkrli siyasəti dünyanın güc mərkəzlərinin maraqlarının toqquşduğu poliqona çevrilməkdə olan Ermənistan üçün nələr vəd edir? Digər region dövlətləri Ermənistanın "özbaşınalığına" çoxmu dözüm nümayiş etdirəcək?



### Ermənistan - Fransanın yeni müstəmləkəsi?







"Sülhpərvər" maskası cırıldığından Emmanuel Makronun prezidentliyi müddətində tarixinin ən rüsvayçı dönəmlərindən birini yaşayan Fransa Cənubi Qafqaza bu dəfə açıq şəkildə tərəf olaraq soxulmaq niyyətini gizlətmir. Görünür, Makron Afrikada ard-arda üzləşdiyi uğursuzluqları Ermənistanı silahlandırmaq və bu vasitə ilə regionda söz sahiblərindən birinə çevrilmək hesabına sığortalamağa çalışır. Ancaq elə təkcə Fransanın göndərdiyi silahlar rəsmi Parisin Ermənistana müttəfiq deyil, yeni koloniyası kimi yanaşdığından xəbər verir. Bu başqa mövzudur ki, Makronun səylərinə baxmayaraq Ermənistan ordusunun döyüş qabiliyyətinin Azərbaycan Silahlı Qüvvələri qarşısında dayana biləcək qədər gücləndirilməsi indiki halda mümkünsüz görünür.

Hərbi ekspertlərin qənaətincə, Fransanın göndərdiyi hərbi texnika və silah-sursat Ermənistanın müdafiə imkanlarının artmasına ciddi təsir göstərməyəcək. Belə ki, Fransa öz "kiçik bacısına" 24 ədəd "ACMAT Bastion" zirehli maşını göndərib. Bu çoxməqsədli avtomobil ilk növbədə Afrikada fəaliyyət göstərən fransız xüsusi təyinatlıları üçün yaradılıb və 2021-ci ildə Burkina Fasoya 8, Qabona 5, Kameruna 15, Keniyaya 12, Fil Dişi Sahilinə 9, Nigerə 13, Mavritaniyaya 7, Somaliyə 13, Maliyə 27, Uqandaya 19, Çada 22, Seneqala 7 "Bastion" tədarük edilib. Görünür, Makron üçün indi Ermənistan da adları çəkilən keçmiş və ya hazırkı Fransa koloniyalarının siyahısına daxil edilib.

Yeri gəlmişkən, Azərbaycan Silahlı Qüvvələrinin arsenalında kifayət sayda həm yerli, həm də Türkiyə, İsrail, Rusiya və digər ölkələrin istehsalı olan ən müasir tələblərə cavab verən çoxməqsədli zirehli avtomobillər mövcuddur.

### Cozep nümunəsində Avropanın simas(ızlığ)ı

Maraqlıdır ki, Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqlarında vasitəçilik missiyasını üzərinə götürməyə çalışan Aİ-nin Cənubi Qafqazdakı reallıqlara ikili standartlar, hətta qərəz və maraqlar prizmasından yanaşması reallığı özünü çox tez büruzə verdi. "İnsan hüquqları"ndan, "ədalət"dən dəm vuran avropalı siyasilərin əsl simaları son hadisələrdən, daha dəqiqi, Azərbaycanın beynəlxalq qanunlar çərçivəsində öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən dərhal sonra ortaya çıxdı. Əvvəl guya "mülki müşahidəçi" adı altında əslində hərbi xarakterli missiyasını Ermənistana göndərən qurumun ali nümayəndəsi Cozep Borelin son bəyanatları da sübut edir ki, Aİ-ni regionda sülh maraqlandırmır. Məqsəd ABŞ-ın Rusiya ilə bağlı planlarını həyata keçirməyə yardım etməkdir. Azərbaycana qarşı əsassız iftiralar atmaq, qərəz, şər, böhtan hesabına olsa belə.



Bu həmin Avropa İttifaqıdır ki, 30 ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına heç bir reaksiya verməyib, ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, bir milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamayıb. İnsan haqları, beynəlxalq qanunlar avropalıların yadına indimi düşüb? Qurumun bu gün işğalçı Ermənistana göstərdiyi dəstək, əvəzində ölkəmizə qarşı səsləndirilən ittihamlar Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı təhdiddir. Qərəzli bəyanatların müəllifi olan Cozef Borel guya bilmir ki, Azərbaycan istər 44 günlük Vətən müharibəsi, istərsə də lokal antiterror tədbirləri keçirməklə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində legitim üsullarla öz suverenliyini bərpa edib? Əslində, Borel də, digərləri də həqiqətin nədən ibarət olduğunu yaxşı bilirlər, sadəcə Azərbaycanın güclü dövlətə, Cənubi Qafqazda yeni reallıqlar yaradaraq diktə edən aktora çevrilməsi başda Fransa olmaqla bütün Qərbin narahatlığına səbəb olub. Ancaq bu dırnaqarası demokratlar bir şeyi unudurlar ki, Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir və hər hansı qeyri-dost hərəkətin mütləq bir adekvat cavabı var.

### İslamofobiyanın və antisemitizmin vətəni

Avropa sürətlə insani dəyərlərin deqradasiyaya uğradığı məkana çevrilməkdədir. Demokratiyanın, söz azadlığının, insan haqlarının məkrli dövlət başçılarının əlində siyasi alətə çevrildiyi "qoca qitə" öz əzəli dəyərlərini tapdamaqla sanki ömrünü başa vurmaq ərəfəsindədir. İllərdir islamofobiyanın meydan suladığı Avropa ölkələrində bu gün həm də antisemitizm meyillərinin artdığı müşahidə olunur. Xüsusilə dünyaya insan haqlarından dərs keçməyə çalışan Fransa va Almaniya öz daxillərində bu sahədə ciddi problem yaşayırlar. İsrail-Fələstin münaqişəsinə münasibət də göstərdi ki, nə Fransanın, nə də Almaniyanın demokratiya və azad insan faktoruna münasibəti nəinki nümunə ola biləcək səviyyədə ədalətli deyil, hətta təhlükə doğuracaq həddə qərəzli, birtərəflidir. Odur ki, Cənubi Qafqaz üçün Qərbdən ədalət, Ermənistanla Azərbaycan arasında sülh vasitəçiliyi gözləməyinə dəyməz. Bu gün Avropanın özünün yenilənməyə, müxtəlif dinlərə sitayiş edən, müxtəlif irqlərdən olan insanlara münasibətinə yenidən baxmasına ehtiyac var.

### Ermənistanın özünütəcrid "sevgisi"...

Baş nazir Nikol Paşinyanın siyasi kursu Ermənistanı əzəli müttəfiqləri ilə üz-üzə qoymaqdadır. Açıq şəkildə Qərbin "maşası" rolunu üzərinə götürmüş Paşinyanın son davranışları təbii olaraq digər qonşuları da narahat edir. Çünki ABŞ-ın, Fransanın, Aİ-nin Ermənistanda əslində hansı məqsəd güddüklərini anlamaq elə də çətin deyil. Bəllidir ki, bütün bu fəaliyyətlər Rusiyanın Ermənistandan tam sıxışdırılıb çıxarılmasına və İranın bölgədəki təsir vasitələrinin neytrallaşdırılmasına yönəlib. Ancaq rəsmi İrəvanın mehriban qonşuluq münasibətlərini də təhdid edən qərbmeyilli siyasətindən lazımi yerlərdə nə nəticə çıxarılır. Həmin nəticə Ermənistan üçün yaxşı heç nə vəd etmir.

Qeyd edək ki, Nikol Paşinyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) noyabrın 23-də Belarusun paytaxtı Minskdə keçiriləcək sessiyasında da iştirak etməyəcəyi dəqiqləşib. Bu barədə Belarus lideri Aleksandr Lukaşenko ilə telefon danışığı zamanı məlumat verən Paşinyan qərarını KTMT tərəfdaşlarının anlayışla qarşılayacağına ümid etdiyini bildirib. Bu artıq neçənci dəfədir ki, Ermənistan KTMT-nin tədbirlərində iştirakdan imtina edir. Bu isə ehtimal ki, Rusiyanın səbrini tükəndirir və Şimal qonşumuzun Ermənistanın nazı ilə çox oynayacağı inandırıcı görünmür.

İran da son vaxtlar Qərbin, necə deyərlər, "burnunun ucuna" qədər yaxınlaşmasından narahatdır. Üstəlik, Ermənistanın ABŞ-la birgə təlimləri, Fransadan silah alışı, "müşahidə missiyası" adı altında Aİ-nin regionda hərbi mövcudluğu İran üçün ciddi təhlükənin yaxınlaşdığını bildirən həyəcan siqnalıdır. Odur ki, bu məsələdə kifayət qədər mühafizəkar davrandığını gizlətməyən rəsmi Tehranın uzun illər boyu himayə etdiyi Ermənistanla münasibətlərini redaktə edəcəyi açıqlamazdır. Nəticə olaraq, Qərbə meyillənmək Ermənistanı regionda tək qoya bilər. İndiki halda sanki Ermənistan qonşuları ilə münasibətdə özü özünütəcrid yolunu seçib. Ancaq ABŞ-ın, yaxud Aİ-nin nə vaxta qədər rəsmi İrəvanın yanında olacağı da ciddi sual doğurur. Axı İsrail-Fələstin münaqişəsindən dərhal sonra Qərb sanki Rusiya ilə müharibəyə təhrik etdiyi Ukraynanı unudu, hətta beynəlxalq KİV-də Qərb dairələri tərəfindən Ukraynanın ərazi itkiləri ilə barışmalı olacağı barədə fikirlər səsləndirildiyi haqqında məlumatlar yayılmaqdadır. Ermənistan isə Qərb üçün heç Ukraynanın heç onda biri qədər də əhəmiyyətli deyil. Deməli, Ermənistanın da sonunun nə olacağını, Paşinyanın öz ölkəsini hansı fəlakətlərə sürüklədiyini təxmin etmək mümkündür.

***Mahir Rəsuloğlu***

# Xəcalət çəkdiyimiz jurnalistlər və onların "media"sı...












Bir jurnalist kimi hər zaman bəzi "jurnalist həmkarlarıma" və onların yaratdıqları "müstəqil media"ya görə xəcalət çəkmişəm. Özlərini nalayiq aparmalarına, kənardan gülünc hədəfinə çevrilmələrinə, "dilənçi" davranışlarına, nahar vaxtı özlərini harasa yıxmalarına, rayona bir iş dalınca gəlib on obyektə baş çəkmələrinə, hər birindən də pay almadan geri qayıtmamalarına, onların arxasınca danışılanları öz qulağımla eşitdiyimə görə hər zaman xəcalət çəkmişəm. Ona görə xəcalət çəkmişəm ki, hamı deyib ki, bunlar jurnalistdirlər. Və biz də jurnalist olduğumuz üçün yəqin fərz ediblər ki, elə bunların hamısı belədir. Əslində isə əsla belə deyil.

Küçənin ortasında, otağın bir küncündə, bəzən elə telefondaca yaranan və küçə formatından, otaq çərçivəsindən, telefon ölçüsündən çıxa bilməyən, elə bütün bunlara görə də təbii ki, "Media haqqında" qanuna əsasən reyestrdən keçə bilməyib əvvəlkindən də miskin vəziyyətə düşən, səsləri məhkəmələrdən gələn bu "media nümunələri" və onların özlərini müstəqil media nümayəndələri adlandıran "əməkdaşları", bizim bəzi "həmkarlarımız" haqqında söhbət açmağın yerinə düşdüyünü fikirləşirəm. Bu barədə danışaq...

## Zərdabinin aynasına ləkə olanlar

Həsən bəy Zərdabi min bir əziyyətlə mətbuatın təməlini qoyanda, bunun üçün dövrünün burjua ünsürlərinin təqiblərinə məruz qalanda, təhdidlərlə üzləşəndə yenə də mübarizədən əl çəkmirdi. Ona görə belə edirdi ki, milli mətbuatı yarada bilsin və sonda buna nail oldu. Və görmək istədiyi mətbuat üçün bu fikirləri söyləyib getdi ki, hər bir vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, həm də düzü düz, əyrini əyri yazsın.

Lakin o vaxt-bu vaxt mətbuatımız heç də Zərdabinin aynasına ləkə olanlardan xali olmadı. Bütün dövrlərdə istər televiziyalarda, radiolarda, istərsə də qəzet redaksiyalarında olan yamaq jurnalistlər bu aynaya öz əqidə ləkələrini salmaqla məşğul oldular. Jurnalistikanı öz alətlərinə çevirənlər, onun asan qazanc yolu olduğunu düşünənlər, insanları "jurnalist" adı altında qorxu, vahimə içərisində saxlamağa çalışanlar, qələmi təhdid vasitəsi olaraq seçənlər daraşdı milli mətbuatın canına. Özlərini filan media təmsilçisi olaraq təqdim etməklə, bunu təsdiq etmək üçün saxta jurnalist vəsiqələrindən istifadə ilə keçdilər "ayna" qarşısına, lakin bu aynada əyri düzü ötdü, keçdi, qalan isə qara ləkə oldu.

Regionlar hazırki "müstəqil media" nın sələflərinin (sözsüz ki, o sələflərdən bu günə kimi qalanlar, formatını dəyişənlər də var) asan qazanc yerinə çevrilmişdi. Çünki icra başçıları əsla istəməzdilər ki, rəhbərlik etdikləri rayon və şəhərlərin adı ölkə mətbuatında hallansın. Baxmayaraq ki, həmin "müstəqil media" nümunələrinin rayonlarda heç adını da eşitməmişdilər, lakin yenə də icra başçıları rayonun adına xələf gəlməməsi naminə bütün qapıları onların üzünə açırdı. Yanlarına icra hakimiyyətindən bir nümayəndə də ayırırdı ki, gün ərzində onları istədikləri yerə aparsın. Rayonda olduqları müddətdə hərtərəfli təminatları üçün şərait yaratsın və "yola" salsın. Bu nüansı yaxalayan həmin müstəqil media təmsilçiləri isə üz tutmuşdular rayonlara. Özləri üçün cədvəl tərtib etmişdilər ki, hansı ay hansı bölgəyə gediləcək. İlin sonunadək bütün ölkəni gəzib, yeni ildən təzədən bu "prinsip" əsasında işləməyə başlayırdılar və bu, onlara çox sərf edirdi. Rayonlardan həm cibi dolu, həm də maşınları dolu qayıdırdılar. Bütün bunlar gözlərimizlə gördüyümüz faktlardır ki, hər dəfə onlara görə utanmışıq, az qala "nə üçün bu sahəni seçdik axı" demişik.

Beləliklə, mətbuatımızda irinli yaralar, şər-şəbədə "qələm sahibləri", reket jurnalistlər, qarnını götürüb rayon-rayon dolanan, nə ad desək yaraşan, lakin tək jurnalistikadan xəbəri olmayan varlıqlar çoxalmağa başladı. Çoxaldıqca da Zərdabinin aynasında hər vilayət onların istədiyi kimi göründü, əslində olduqları kimi deyil. Bu isə bu aynaya ləkədən başqa heç nə gətirmədi.

## Məhkəməyə onu da təqdim ediblərmi?..

Cümlə nədir, necə qurulur, orfoqrafiya nədir, nəyə xidmət edir, anlayışlarından əsla xəbəri olmayan, "müstəqil mediaya" yalnız pul qazanmaq, yaxşı yaşamaq üçün gələnlər, görəsən, yaxşı bir təhlil, araşdırma, oçerk, reportaj, analiz xarakterli yazılardan ibarət bir qovluq da məhkəməyə təqdim edə biliblərmi? Axı məhkəməyə şikayət etmək üçün əlində tutarlı faktlar olmalıdır. Əks təqdirdə haqlı olduğunu necə sübut edə bilərsən?

İllərlə yuxarıda da qeyd etdiyim kimi, şəhərli-rayonlu gəzib-dolanan, baş vurmadıqları idarə, müəssisə, təşkilat qalmayan, dəqiqədəbir zəngləri ilə camaatı dəngəsər edən bu "jurnalistlər" tutarlı bir yazı yazıb saytlarında yerləşdiriblərsə, ölkədə hansısa bir problemi üzə çıxarıb həlli yollarını axtarıblarsa, təklifləri veriblərsə, araşdırıb bir məsələni meydana gətirə biliblərsə, sosial problemlər barədə bircə tutarlı yaza biliblərsə, qovluğa ehtiyac yoxdur, elə o bir dənəni məhkəməyə təqdim etsinlər ki, baxın, biz, belə işləmişik.

Təəssüf ki, belə bir yazı yoxdur. Çünki həmin saytların işi şəxsi mənafelərə xidmət etmək, reklamları ilə məşğul olmaq, haradasa bir "xəta" axtarıb onun arxasınca gedib pul qazanmaqdır, vəssalam.

Məhkəməyə hər bir vətəndaş müraciət edə bilər. Lakin özünü "müstəqil media" adlandırıb "jurnalist" hesab edənlərin müraciəti yersizdir. Ona görə ki, özlərini ziyalı hesab edənlərin əlində əsası olmadan məhkəməyə müraciət etməsi özünü biabır etməkdən, savadının səviyyəsini ortaya qoymaqdan başqa heç nədir.

## Regionlardan söhbət düşmüşkən...

Vaxtilə müasir dövrümüzdəki imkanlar yox idi. Regionlarda mətbuat əlçatan deyidi. Bu səbəbdən də rayon qəzetləri yaradılmışdı. Hələ bəzi böyük şəhər və rayon mərkəzlərində televiziya və radiolar da fəaliyyət göstərirdi. Rayon qəzetində illərlə fəaliyyət göstərən jurnalist kimi deyə bilərəm ki, artıq bu gün regionlarda mediaya ehtiyac yoxdur. Çünki insanlar bir anın içərisində nəinki ölkədə, dünyada baş verən hadisələr haqqında məlumat ala bilirlər.

Düzdür, tək məlumat almaq məsələni həll etmir. İnsanlara hər hansı məsələyə, hadisəyə münasibət bildirən, onun məğzini açan yazılar da lazımdır. Lakin etiraf edək ki, buna rayon qəzetlərində çalışan jurnalistlərin gücü çatsa da, çərçivə anlayışı buna imkan vermir. Bu səbəbdən də regionlarda mətbuat bürolaarı kifayət edər ki, baş verən hadisələr, yeniliklər, xəbərlər haqqında ölkə mətbuatına məlumat verilsin.

Qəzet "ömrünün" başa çatdığı artıq bütün dünyaya məlumdur. Lakin elə bütün ölkələrin də mərkəzi şəhərlərində hələlik onlarla qəzet nəşr olunur. Çap mediasının vacibliyi səbəbindən, sosial mediaya arxiv nöqteyi-nəzərindən etibar olmadığından düşünürəm ki, hələ uzun illər bu, belə olaraq qalacaq da. Mütəxəssislər hələ 2034-cü ilədək qəzet nəşrlərinin olacağını hesablayırlar. Daha sonra isə nə olacaq, bu, heç kimə məlum deyil. Belə bir dövrdə regionlarda medianın saxlanmasına ehtiyac yoxdur. Bu, həm maliyyə baxımından artıq xərcdir, həm də müasir texnologiyaların-kompüter, smartfon telefonların, yüzlərlə xəbər agentlik və saytlarının, eləcə də sosial şəbəkələrin olduğu bir vaxtda ehtiyac duyulmayan mətbu orqandır.

Regionlarda fəaliyyət göstərən televiziya və radiolar da eynilə qəzetlər kimi.

## MEDİA reyestri ədalət tərəzisidir

Ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar kimi, media sahəsində də buna ehtiyac duyulduğundan "Media haqqında" qanun qəbul edildən sonra media subyektlərinin reyestrdən keçməsi də zəruri oldu. Media reyestri ədalət tərəzisidir. Bu tərəzinin gözündə hansı media nümunəsi tarazlıq təşkil edirsə, o da asanlıqla reyestrdən keçir və öz fəaliyyətinə davam edir. Burada anlaşılmaz heç nə yoxdur. Hətta ayrı-seçkilik də yoxdur. Sən media təmsilçisi olaraq nəsənsə, ölkədə, oxucu, izləyici kütləsi arasında mövqeyin nədirsə, reyestrdən keçməni də məhz bunlar müəyyən edir. Bunun üçün kimdənsə küsüb-inciməyə, onu məhkəməyə verməyə əsla dəyməz. Çünki yenə də deyim, məhkəmədə əsaslanacaq bir vasitə olmalıdır əlində.

Müstəqil media o demək deyil ki, sən öz fəaliyyətini özün istədiyin kimi qurasan, savadsız, heç bir səriştəsi olmayanlara jurnalist "statusu" verəsən, mənəm-mənəmlik edəsən, Azərbaycan dilinin qrammatik qanunlarını pozasan, nə yazdığını, nə təqdim etdiyini heç özün də bilməyəsən.

Düşünürəm ki, səhərdən bəri haqqında danışdığımız "jurnalistlər"də, onların "mediası" da Azərbaycan mətbuatının üz qarasıdır. Nə üçün vicdanlı, ədalətli, qərəzsiz, öz işinin ağası olan, bir yazısı ilə onlarla belə "jurnalisti" bir qələmlə silə biləcək peşə sahibləri ilə onlar bir peşəni bölüşməlidirlər, utanmalıdırlar, xəcalət çəkməlidirlər?

Bu, ictimai bir problemdir. Ona görə də istər jurnalist olsun, istər oxucu, izləyici kütləsi, bu məsələyə öz münasibətini bildirməlidir. Çünki bu cür "media"dan xilas olmaq həm jurnalist, həm də oxucu, izləyici olaraq ən başlıcası özümüzə hörmət deməkdir.

***Mətanət Məmmədova***

ANALİZ

# “Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı çoxşaxəlidir”

*MÜNASİBƏT BİLDİRİLDİ*




“Prezident İlham Əliyevin Özbəkistanın paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında çıxışı bir daha onun göstəricisidir ki, iki ölkə arasında sözün əsl mənasında tam yeni bir əməkdaşlıq mərhələsidir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib. Elşad Məmmədli sözlərinə belə davam edib: ”Həm Türk Dövlətləri Təşkilatı, həm İƏT çərçivəsində atılmış birgə addımlar, həm də ayrıca Azərbaycan-Özbəkistan əlaqələrinin sürətli inkişafı olduqca mühüm nəticələrə səbəb olub. Perspektivdə isə şübhəsiz ki, daha böyük işlər həyata keçiriləcək.



Cənab İlham Əliyev noyabrın 9-da Zirvə toplantısında çıxış edərkən də bəyan etdi ki, Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir. Məlumdur ki, Şavkat Miromonoviç Mirziyoyev yenidən Özbəkistan Prezidenti seçildikdən sonra 2023-cü il avqustun 22-də ilk dövlət səfərini Azərbaycana edib. Bu, iki ölkə arasında qardaşlıq münasibətlərinin ən yüksək səviyyədə olmasına dəlalət edir. Həmin səfərdən sonra Prezident İlham Əliyev ”Biz bu gün görüşlər və danışıqlar çərçivəsində mahiyyətcə münasibətlərimizin inkişafının gələcəyini müəyyən etdik” - deyə bildirmişdi.

Burada bir məqamı xüsusi qeyd etməliyik ki, İkinci Qarabağ savaşından, Zəfərimizdən dərhal sonra Prezident İlham Əliyev türk dövlətlərinin sıx əməkdaşlığı, strateji müttəfiqliyi istiqamətində ciddi addımlar atdı. Faktiki olaraq bu yöndə əsas təşəbbüskar Azərbaycan Prezidentidir. Onun bu strategiya və təşəbbüslərinin böyük nəticələrini bütövlükdə türk dünyası görür. Cənab İlham Əliyevin bu siyasəti onun nə qədər müdrik, praqmatik siyasətçi olmasının daha bir təsdiqidir.

Ayrıca Özbəkistanla münasibətlər təkcə siyasi müstəvidə deyil, iqtisadi, nəqliyyat və digər sahələr üzrə də ən yüksək səviyyədədir. İki ölkə arasında Ali Dövlətlərarası Şuranın yaradılması ilə əlaqələrin inkişafı daha sürətli aparılır. Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı çoxşaxəlidir. Ekspertlər hesab edir ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin 1 milyard dollara qədər yüksəldilməsi imkanları var. Bu məqsədlə energetika, turizm, maşınqayırma və digər sahələrdə əməkdaşlıq daha da dərinləşməkdədir. Şübhəsiz ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsindən sonra Özbəkistanla da nəqliyyat - logistika sahəsində daha böyük imkanlar açılmış olacaq.

Özbəkistan Qarabağda quruculuq, abadlıq işlərində də aktiv iştirakçıdır. Özbəkistan Prezidenti Azərbaycanda səfərdə olarkən Füzuliyə də getdi və doğma yurduna qayıtmış, yeni evlərə köçürülmüş keçmiş məcburi köçkünlərlə görüşdü. Özbəkistan Azərbaycana siyasi-mənəvi dəstəyini həm də Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagird yerlik məktəb inşa etməsi ilə göstərib”.

***Ayşən Vəli***




# ”30 ildə ATƏT PA-nın rolunun kifayət qədər səmərəli olmadığını gördük”

“Bir neçə gün sonra Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının payız sessiyası Ermənistanda keçiriləcək. Payız sessiyası ərəfəsində Azərbaycana səfər edən ATƏT PA-nın Prezidenti Pia Kauma Prezident İlham Əliyev, Milli Məclisin sədri Sahibə xanım Qafarova və DTX sədri Əli Nağıyev tərəfindən qəbul olunub. Bütün görüşlərdə ATƏT PA-nın sülhün və təhlükəsizliyin təmin olunmasındakı roluna toxunulub”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Cavanşir Feyziyev deyib.

Onun sözlərinə görə, Azərbaycan Prezidenti xanım Kaumanı qəbul edərkən bölgədəki mövcud durumla bağlı məlumat verib və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanması üçün real imkanların olduğunu bildirib: ”Bununla bərabər ölkə başçısı 88-90-cı illərdə Ermənistandan çıxarılmış Azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ və bu hüquqların reallaşdırılması ilə bağlı Azərbaycan tərəfindən qaldırılan məsələyə Ermənistan tərəfindən aydın bir cavabın verilmədiyini də ATƏT PA-nın prezidentinin diqqətinə çatdırıb.

Milli Məclisdə keçirilmiş görüşdə xanım Qafarova ATƏT PA-nın fəaliyyət göstərdiyi bütün müddətdə ölkəmizə qarşı müşahidə olunan ikili standartların qəbuledilməz olduğunu bildirib və ATƏT PA-nın Ermənistan üçün Azərbaycana qarşı təbliğat platformasına çevrilməsinin yolverilməz olduğunu vurğulayıb”.

Deputat sözlərinə davam edərək bildirib ki, DTX sədri ilə keçirilən görüşdə erməni təcavüzü nəticəsində itkin düşmüş hesab olunan 4 minə yaxın soydaşlarımız haqqında Ermənistan tərəfindən heç bir məlumatın verilmədiyi ATƏT PA-nın prezidentinin diqqətinə çatdırılıb: ”Mətbuata verilən məlumatlardan belə qənaətə gəlmək olar ki, Azərbaycanda keçirilmiş bütün görüşlərdə ATƏT PA-nın son 30 il ərzində bölgəmizdə baş verən hadisələrə səmərəli təsir göstərə bilmədiyi vurğulanıb.

Yaxın günlərdə Ermənistanda keçiriləcək sessiya ”ATƏT böhran anlarında: daxili və xarici çağırışlara qarşı mübarizədə Parlament Assambleyasının rolu” devizi altında keçirilir. Azərbaycanda keçirilmiş görüşlərdə qaldırılan bütün məsələlərlə bağlı ATƏT PA -nın hansı tədbirlər görə biləcəyi və bu tədbirlərin nə dərəcədə obyektiv və təsirli olacağı o qədər də aydın deyil. Çünki son 30 il ərzində Cənubi Qafqaz bölgəsində mövcud olmuş davamlı böhran vəziyyətində ATƏT PA-nın rolunun kifayət qədər səmərəli olmadığını görmüşük. ATƏT PA öz fəaliyyətində köklü dəyişikliklər edə biləcək yoxsa yox, bunu yaxın gələcək göstərəcək”.

***L. Sərraf***

# ”Gələcəkdə turizm marşrutları üçün rahat məkanlar inşa olunmalıdır”

*EKSPERT İZAH ETDİ*

“Ümumiyyətlə qeyd etmək lazımdır ki, azad olunmuş ərazilər bizim üçün tam yeni bir ərazilər kimidir. Orada infrastruktur demək olar ki, sıfırdan qurulur. Yeni hava limanları inşa olunur, yeni yollar çəkilir, evlər tikilir, ağıllı kəndlər salınır. Bütün bunlar üçün əslində əlverişli şərait var ki, gələcəkdə turizm marşrutları üçün rahat məkanlar inşa olunsun”. Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Ceyhun Aşurov deyib. Onun sözlərinə görə, yeni salınan azad iqtisadi zonalar və yaxud yeni inkişaf etməkdə olan boş ərazilərdən yaranmış, sonradan turizm məkanına çevrilmiş ölkə buna nümunə ola bilər: ”Bu, sırf müharibədən sonrakı vəziyyət kimi yox, boş bir ərazinin sonradan turizm ərazisinə çevrilməsi baxımından imkanlar dəyərləndirilə bilər. Əlbəttə ki, bu təcrübədən faydalansaq da biz lokal bir sıra faktorları nəzərə almalıyıq. Uzun müddət təhlükəsizlik üçün minadan təmizlənmə işləri görülməlidir, müasir yollar olmalıdır. Hər şey kifayət qədər müasir standartlara cavab verən səviyyədə olacaq”.



Ekspert sözlərinə davam edərək bildirib ki, həmin ərazilərdə yeni otellərin inşası nəzərdə tutulur: ”Əvvəldən ənənəvi olan isti su ilə bağlı sağlamlıq, turizm məhsulları, sağlamlıq turizmi sanatoriyalarının tikilməsi nəzərdə tutulur. Yaşıl turizm, kənd turizmi və s. bunlar üçün xüsusi xarici təcrübələr araşdırılmaqla bərabər yerli vəziyyətin relyef, iqlimi və yerli şərtlər nəzərə almaqda fayda var. Düşünürəm ki, burada bir yox, bir neçə nümunədən istifadə oluna bilər.

Konkret turizm bölgəsi elan edilən ərazilər buna misal ola bilər. Gürcüstan və yaxud Türkiyə misalında bu kimi ərazilər var. Amma tam buna oxşar deyil. Məsələ bundadır ki, işğaldan azad olunmuş ərazilər tək turizm zonası deyil. Həmin ərazilərdə turizm fəaliyyəti, turizm məhsullarının da olması şərtdir. Eyni zamanda turizm obyektləri tarixi nümunələrə, memarlıq abidələrinə və digər təbiət imkanlarına görə orada turizm məhsulları da mütləq olacaq”.

***Ləman***

# Rusiyalı ekspert: ”Ermənilər Azərbaycana qayıtmaq istəyirsə, onda azərbaycanlılar da Ermənistana qayıtmalıdır”

***Hərbi ekspert, ”Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko ”Moskva-Baku” portalına müsahibəsində Azərbaycanın Xankəndidə parad keçirməyə mənəvi haqqının olması barədə danışıb. Korotçenko regionda gedən prosesləri və baş verən hadisələri də şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Müxtəlif ölkələrin mətbuatında, sosial şəbəkələrdə Azərbaycanın İkinci Qarabağ Müharibəsində Qələbənin 3-cü ildönümü günündə Xankəndidə keçirdiyi hərbi parad diqqət mərkəzindədir. Amma Azərbaycanın buna mənəvi haqqı olmadığını deyən tənqidçilər də var...***

- Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisində ona lazım olan istənilən fəaliyyəti həyata keçirmək üçün tam möhkəmlənmiş konkret hüquqi və mənəvi əsası var. Xankəndidə paradın keçirilməsi Azərbaycan hakimiyyətinin suveren qərarıdır və bununla bağlı hər hansı mənfi qiymətləndirmə və ya bəyanatlar siyasi əhəmiyyət kəsb etmir.

Və kimsə Bakıya qarşı mənəviyyat dərsi verməyə çalışırsa və ya hər hansı iddia irəli sürürsə, qoy ilk olaraq Azərbaycan ərazilərini



işğal edən, azərbaycanlıları zorla, sözün əsl mənasında vəhşicəsinə öz ərazilərindən çıxaran, saxta deyil, real etnik cinayətlər həyata keçirmiş işğalçı Ermənistana iddialar irəli sürsünlər. Azərbaycan torpaqlarının işğalı zamanı azərbaycanlıların təmizlənməsi onları yandırılmış səhraya çevirmiş, mədəni, tarixi və dini abidələri yerlə-yeksan etmişdir.

Mən öz gözlərimlə gördüm ki, Füzuli, Şuşa və Azərbaycanın digər şəhər və qəsəbələri nələrə çevrilib. Bunlar, əslində atom bombasının nəticələrinə bənzəyən mənzərələr idi. Deməli, mənəviyyat dərsi Bakı üçün yox, erməni separatçılarına və Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayan Ermənistana bütün bu onilliklər ərzində dəstək verənlər üçün vacibdir.

Biz Azərbaycan xalqına qarşı 1980-ci illərin sonlarında həyata keçirilməyə başlanan soyqırım aktlarını, azərbaycanlıların kütləvi surətdə qovulmasını, qırğınları xatırlamalıyıq. Bu, həm Qarabağda, həm də onların Ermənistanda yaşadıqları yerlərdə baş verib. Biz Xocalı soyqırımını çox yaxşı xatırlayırıq, bu, erməni hərbi cinayətkarları, eləcə də Yaxın Şərq ölkələrindən, Avropadan, Birləşmiş Ştatlardan regiona gələn etnik erməni yaraqlıları tərəfindən törədilmiş kütləvi vəhşilik, insanlığa qarşı cinayət idi. Bunu heç kim unutmamalıdır. Bu cinayətlər də qanuni hökm tələb edir. Aydındır ki, erməni işğalçılarının həyata keçirdikləri əməllərin qiymətləndirilməsi, işğalın nəticələrinin qiymətləndirilməsi Azərbaycan tərəfindən həbs edilən konkret şəxslərin- erməni separatçılarının rəhbərlərinin və yüksək rütbəli terrorçuların mühakiməsindən daha geniş olacaq. Milyonlarla insanın- təkcə azərbaycanlıların deyil, ermənilərin də böyük əzablarına səbəb olan millətçi erməni ”Miatsum” layihəsinə tarixi qiymət veriləcək.

Erməni millətçilərinin Azərbaycan xalqına etdikləri hər şeydən sonra Azərbaycan hakimiyyəti indi nə edib? Onlar Qarabağdakı er-



məni əhalisinin təhlükəsizliyini təmin etməyə, onlara digər Azərbaycan vətəndaşları ilə bərabər hüquqlar verməyə hazır olduqlarını bəyan ediblər. Nəticədə, vurğulamaq istəyirəm ki, Qarabağın erməni əhalisi Azərbaycan tərəfinin heç bir məcburiyyəti olmadan öz gələcəklərini Azərbaycan dövləti çərçivəsindən kənarda axtarmaq üçün bölgəni tərk etdilər. Bu, onların öz seçimi idi, baxmayaraq ki, biz bilirik ki, müəyyən erməni maraqları onları ”qorxulu Azərbaycan” və bəzi uydurma hekayələrlə qorxutmağa çalışırdı.

Qeyd edim ki, Qarabağın erməni əhalisi ərazini tərk etdikdən sonra da rəsmi Bakı geri qayıtmaq istəyənlərə zəng vurur və çağırır.

”Dəhşətli Azərbaycan tərəfindən Qarabağdan qovulmuş yazıq ermənilər”lə bağlı müxtəlif ölkələrdə hansısa qüvvələrin irəli sürdüyü tezis heç bir nəticə verməyəcək. Bu, tamamilə qanunsuzdur. Və bunu təbliğ edən o ölkələrin və ya şəxslərin, qüvvələrin bunda öz siyasi, milli və ya digər maraqları var. Azərbaycana təzyiq heç bir nəticə verməyəcək. Aydındır ki, ABŞ, Fransa və Avropa İttifaqı prinsipcə Azərbaycanın güclü olmasını istəməzdi. Amma bu onların problemidir.

Azərbaycan Prezidenti İlham Əliyevin MDB üzvü olan ölkələrin xüsusi xidmət orqanları rəhbərlərinin oktyabrda Bakıda keçirilən müşavirəsində vurğuladığı kimi, Azərbaycan üçün Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı daxili təhlükəsizlik problemləri tamamilə həll edilib və bağlanıb. Ona görə də kimlərinsə təzyiq göstərməsi və guya ”qovulan ermənilər” mövzusunu gündəmə gətirmək cəhdləri siyasi baxımdan əhəmiyyətsizdir.

Eyni zamanda, bu, mənim ekspert nöqteyi-nəzərimdir, erməni əhalisinin müvafiq yoxlama tədbirləri görüldükdən sonra Qarabağa qayıtması məsələsini əlaqələndirmək məntiqlidir və praktikdir (bunlar hörmətli mülki şəxslər ola bilər, nəinki yeni təxribatlar üçün qayıtmağa çalışan maskalanmış silahlılar). Bu, Azərbaycan əhalisinin Ermənistana qaytarılması prosesi ilə paralel gedə bilər. Fikrimcə, ermənilərin Qarabağa qayıtması məsələsi İrəvan və ya Ermənistanın maraqlarını xüsusilə önə çəkən dövlətlərdən biri - Fransa, ABŞ, Avropa İttifaqı tərəfindən qaldırılarsa, onda bu iki məsələ bir paketdə olmalıdır.

44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycan ordusu üçün müstəsna hərbi uğur idi. Bildiyimiz kimi, 9-10 noyabr 2020-ci il tarixlərində Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən Ermənistan ordusunun hissələrinin və qanunsuz erməni si-



lahlı birləşmələrinin Qarabağdan çıxarılmasını nəzərdə tutan üçtərəfli bəyanat imzalanmasına baxmayaraq, Ermənistan tərəfi bu bəndi kobud şəkildə pozub. Beləliklə, bütün bu 3 il ərzində Qarabağda olmuş bu birləşmələri bir növ terror nüvəsi adlandırmaq, üstəlik, demilitarizasiya əvəzinə, ardıcıl olaraq silahlarla doldurulmuş bir terror nüvəsi adlandırmaq mübaliğə olmaz. Bu birləşmələr vaxtaşırı Azərbaycan ərazisində təxribatlar həyata keçirib, bu da digərləri ilə yanaşı, mülki əhalinin və hərbçilərin ölümünə səbəb olub. Bundan başqa, erməni tərəfi talançı mədən hasilatı və Qarabağdan qiymətli metalların ixracı ilə məşğul olub. Bütün bunlar birlikdə Azərbaycanın titanik səbrinə və danışıqlar masası arxasında qalan məsələləri diplomatiya yolu ilə həll etmək cəhdlərinə baxmayaraq, ardıcıl olaraq regionda vəziyyəti gərginləşdirib.



Ermənistan tərəfinin Azərbaycan hərbçilərinin və mülki şəxslərinin ölümünə səbəb olan növbəti təxribatından sonra Azərbaycan bu ilin sentyabr ayında Qarabağda bir sutkalıq antiterror tədbirləri həyata keçirib.

Yaxın tarixdə müəyyən münaqişələrə nəzər salsaq, Azərbaycandan başqa heç bir ölkə belə uğurlu və səmərəli hərbi əməliyyatlar nümayiş etdirməyib. Bu, hamının etiraf etdiyi reallıqdır. Bunlar müasir hərbi sənətin görkəmli nailiyyətləridir. Azərbaycanın istər İkinci Qarabağ müharibəsində, istərsə də antiterror tədbirləri zamanı həyata keçirdiyi əməliyyatlar bu gün başqa ölkələrin hərbi inkişaf təcrübəsində öyrənilməsi, dərk edilməsi və həyata keçirilməsi məsələsidir. Azərbaycanın bu əməliyyatları müasir tarixdə görünməmiş əməliyyatlardır.

Odur ki, bütün yuxarıda deyilənləri ümumiləşdirsək, Xankəndidə keçirilən hərbi parad uzun sürən qanlı münaqişəyə son qoyan Azərbaycanın təbii qələbəsinin təntənəsidir. Bu gün Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə bərpa edib. Və bu əbədidir. Qarabağ Azərbaycandır.

Bundan başqa, Xankəndidə keçirilən hərbi parad Azərbaycanın ərazi bütövlüyünə qəsd etmiş və ya erməni işğalçılarına dəstək verən hər kəsə növbəti təsdiq və mesajdır ki, bu məsələ artıq geridə qalıb və dönməz şəkildə başa çatıb.

***- Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesini nə gözləyir?***

- Qərb çoxdan özünü vasitəçi kimi nüfuzdan salıb. Və mənim fikrimcə, Azərbaycan Qarabağı qəti şəkildə qaytardıqdan sonra artıq vasitəçi olmayacaq. İndi Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin tənzimlənməsi və imzalanması mövzusu sırf və yalnız ikitərəfli münasibətlərə aiddir. Qarabağ mövzusu həmişəlik bağlıdır. Bölgəyə yeni reallıq gəlib. Sülh müqaviləsi Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü 5 prinsip əsasında imzalanmalıdır. Ermənistan istəyirsə, kimsə onu qucağında gəzdirsin və ya danışıqlar zamanı kiminsə qucağında oturmaq istəyirsə, qoy olsun. Amma bu, yalnız Ermənistan rəhbərliyini nüfuzdan salacaq.

***- Son aylar Rusiya mütəmadi olaraq Qərbin Rusiyanı MDB ölkələrinə qarşı sıxışdırmaq cəhdləri mövzusunu gündəmə gətirir. Rusiya prezidenti Vladimir Putin MDB ölkələri Təhlükəsizlik Şuraları katiblərinin Moskvada keçirilən görüşü ilə bağlı videomüraciətində Birlik dövlətlərində legitim hakimiyyəti sarsıtmaq cəhdlərinə diqqət çəkib. Təhlükəsizlik Şurasının katibi Patruşev isə Qərbin Cənubi Qafqazdakı vəziyyətə təsir etmək cəhdlərini bir daha xatırladıb...***

- Vəziyyəti gərginləşdirmək və silkələmək cəhdləri davam edir. Bu barədə FSB-nin direktoru Aleksandr Bortnikov Bakıda MDB-yə üzv dövlətlərin təhlükəsizlik orqanları rəhbərlərinin iclasında çıxış edərkən danışıb. Vladimir Putin bunu bir daha daha konsentrasiyalı, daha geniş miqyasda səsləndirdi. Qərbin MDB-yə zərbə vurmaq, Mərkəzi Asiyanı, Qafqazı, Xəzər regionunu ”partlatmaq” cəhdi varbu, dünyaya hakim olmaq istəyən qüvvələrin məqsədlərindən biridir. Bizim ümumi vəzifəmiz belə cəhdlərə qarşı durmaq və onların uğursuz olması üçün hər şeyi etməkdir. Bu, bizim milli təhlükəsizliyimizlə bağlı məsələdir. Prezident İlham Əliyev oktyabrda Bakıda MDB ölkələrinin təhlükəsizlik orqanlarının rəhbərlərini qəbul edərkən deyib ki, ilk növbədə, operativ məlumat mübadiləsi zəruridir, çünki bu, müəyyən təhlükələrin müəyyən edilməsinin əsasını təşkil edir və onlara qarşı əlavə tədbirlər görülməlidir.

Rusiya prezidenti də eyni mesajı verib. Biz ümumi təhdidlərə və təhlükəsizlik çağırışlarına qarşı səmərəli şəkildə birlikdə çalışacağıq. Bu mövzu aktual idi, aktualdır və olacaq.

***- Ermənistan Təhlükəsizlik Şurasının katibi bu görüş üçün Moskvaya getmədi. Təhlükəsizlik şuralarının katibləri Qərbin Birlik məkanına təsir cəhdlərini müzakirə edərkən o, İrəvanda ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsi üzrə nümayəndəsi ilə görüşüb.***

- O, ona görə getmədi ki, onun Azərbaycanın Qələbə Günündə Moskvaya gəlişi erməni ictimai rəyi tərəfindən birmənalı qarşılanmayacaqdı.

Bundan başqa, Moskvaya MDB iclasına getməkdən imtina Ermənistanın getdikcə daha çox Rusiyadan uzaqlaşaraq, Qərbə doğru getdiyinə işarədir. Bu, onların seçimidir, hadisələrin necə inkişaf edəcəyini görəcəyik. Hər halda, Ermənistan öz ayağına atəş açmaq istəsə, biz onu bu intihar cəhdlərindən saxlaya bilmərik. Bu onun seçimidir, nəticələrinə görə müstəqil şəkildə cavabdeh olacaq. Və Allah xatirinə, Ermənistan hakimiyyətinin MDB formatında görüşlər əvəzinə amerikalıları qəbul edib onlarla məsələləri müzakirə etməyi seçməsi faktını qəbul etdim. Hər kəsi qəbul edə bilərlər. Bu artıq heç nəyə təsir etmir. Rusiya kimin müttəfiq, tərəfdaş, kimin düşmən və ya pis niyyətli olduğunu aydın şəkildə dərk edir.

***Tərcümə - Elçin Bayramlı***

# Türk, talış, ləzgi, avar - nə fərqi var?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Tarix boyu türk xalqlarının məskunlaşdığı ərazilərdə milli və dini tolerantlıq hökm sürüb. Türk xalqları fərqli mədəniyyət və inanc mənsubları ilə tolerantlıq və harmoniya çərçivəsində, hətta eyni idarəetmə altında da həyatlarını davam etdiriblər. İslamı qəbul etdikdən sonra da öz əzəli inanclarındakı tolerantlıq, bərabərlik, ədalət, insanlıq kimi təməl dəyərlərini İslami inanc və prinsiplərlə birləşdirərək yaşayıblar.**





## Nə dini, nə milli ayrı-seçkilik

Azərbaycan cəmiyyətində dini mənsubiyyət azadlığı və tolerantlıq faktoru tarixin bütün dövrlərində mövcud olub. Bu, indi daha yüksək səviyyədədir və bu, müxtəlif millətlərin nümayəndələrinin eyni idarətmə altında sülh içində yaşamasından bəllidir. Tarixi mənşəyinə görə türk cəmiyyətinin təməl dəyərlərindən biri olan tolerantlıq anlayışı müxtəlif amillərin təsiri altında türklərə xas bir xarakter alıb. Əvvəla, müxtəlif inanclara, mədəniyyətlərə və həyat tərzlərinə hörmətlə yanaşmaq mənasını verən tolerantlıq anlayışı həm də sosial sabitliyə və həmrəyliyə töhfə verir. İkincisi, dövlətin, cəmiyyətin mövcudluğunun qorunub saxlanmasında bu amil mühüm funksiya hesab edilir.

Tolerantlıq başqalarının dəyər verdiyi inancları, düşüncələri və hissləri başa düşmək, onlara dözməkdir, bu, hətta bizim baxışlarımıza zidd olsa belə. Qədim türk mədəniyyətində tolerantlığın inkişafı dərindən araşdırıldıqda bu anlayışın dəyər, əxlaqi inanc və əxlaqi-mənəvi ölçü baxımından çox dözümlü olduğu aydın olur. Qədim türk torpaqları olan Azərbaycanın tarixi mədəniyyətində özünəməxsus məzmun və məna daşıyan tolerantlıq anlayışı Qərbdə maarifçiliklə başlayan tolerantlıq praktikalarından daha uzun bir tarixə malikdir. Bizim tariximiz boyu normal, gündəlik həyat tərzimiz olan tolerantlıq Qərbin bu gün qanunlarla, sərt qaydalarla nail olduğu vəziyyətdir. Hər bir azərbaycanlının düşüncəsinin təməlini başqalarının fikrinə hörmət, başqa inanclara diqqət təşkil etdiyi üçün tolerantlıq bizim üçün normal yaşayış standartıdır. Biz tolerantlığa zorakı əməl etmirik, çünki o bizim həyat tərzimizdir.

Tolerantlığa əsaslanan cəmiyyətin formalaşmasında bir çox amillərlə yanaşı, qədim türklərin İslam dinini qəbul etməzdən əvvəlki dini inanc və adətlərinə bağlılığı böyük olub. Bu ənənə türklərin Tanrı-insan və insan-insan münasibətlərinin müəyyənləşdirilməsində, İslamın mənimsənilməsində mühüm əhəmiyyət kəsb edir.

## Necə idiksə, hələ də eləyik

Azərbaycanda istər İslamdan əvvəlki dövrdə, istərsə də İslamı qəbul etdikdən sonra başqa din və mədəniyyət nümayəndələrinə qarşı son dərəcə tolerant olublar. Şübhəsiz ki, qədim mədəniyyətimizdə tolerantlığın asanlıqla fərqləndirilməsinə kömək edən çoxsaylı amillər arasında fərqli dinə inanan insanlarla birlikdə yaşama təcrübələri rol oynayır. Digər tərəfdən, dini dəyərlərə bağlılıq və bununla bağlı yaradılmış möhkəm ailə quruluşu türk humanizminin tolerantlıq və insan sevgisinə əsaslanan inkişafına təsir edib. Bu torpaqlarda kök salan insanlar bir prinsiplə yaşayıblar: "incisən də, incitmə!". Fikrimcə, tolerantlığın ən qısa tərifi də budur.

Müxtəlif dinləri, millətləri birləşdirib bir idarəetmə altında yaşadan Sovet İttifaqında 70 ildən artıq yaşamış bir ölkə kimi Azərbaycan həmin dövrdə də bu tolerantlığı inkişaf etdirdi. Bir imperiya altında onlarla millətlə qaynayıb-qarışan xalqımız ondan öncəki yaşayışını davam etdirdi, yenə başqa millətlərlə qardaşlıq, dostluq şəraitində yaşadı. Biz Azərbaycandakı tolerantlığın ən güclü nümunəsini 44 günlük müharibədə də gördük. Dinindən, milliyyətindən asılı olmayaraq bütün gənclər vətən üçün cəbhəyə axışdı. Eynilə I Qarabağ Müharibəsində olduğu kimi II Qarabağ Müharibəsinin də dini-etnik mənsubiyyəti fərqli olan qaziləri, qəhrəmanları, şəhidləri oldu.

## Erməni vəhşiliyinə şillə kimi cavab

Dini, milli dözümsüzlüyün simvoluna çevrilmiş ermənilər uzun illər işğal altında saxladıqları torpaqlarımızda olan mədəniyyət abidələrimizi, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirdilər. Dünyanın qədim yaşayış məskənlərinin qalıqlarını minillərdir qoruyub saxlayan Azərbaycan o abidələri qoruq elan edib mühavizə edirdi, lakin erməni vandalları xalqımızın tarixini məhv edib. Azərbaycanın erməni kilsələrinə qarşı tolerant davranışını ermənilər bizim tarixi abidələrimizə göstərmədilər.

Prezident İlham Əliyev çıxışlarının birində belə deyir: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salıblar, dağıdıblar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerlə yeksan ediblər".

Ortaq dəyərlər etnik, dini, siyasi, sosial, mədəni mənsubiyyətindən asılı olmayaraq bu tolerant ölkədə yaşayan hər bir insan üçün ümumi ehkamlara söykənir. Bu ehkamın özülü dostluq, materialı sülh, ustası isə müxtəlif millətlərin birləşdiyi xalqımızdır.

***Lalə Mehralı***

# "Dövlət büdcəsi yenə də sosialyönümlü olacaq"



*MÜNASİBƏT*

"Əvvəlki illərdə olduğu kimi, dövlət büdcəsi yenə də daha çox sosialyönümlü büdcə adlandırmaq olar. Eyni zamanda, bu büdcədə daha çox vəsaitin ölkənin milli təhlükəsizliyinə və hərbi xərcləri daha çox üstünlük təşkil etdiyini görərik. Digər bir istiqamət təhsilə yönəlik xərclər kifayət qədər yuxarıdır". Bunu SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, sosial təminat məsələlərinə yönəlmiş xərclər kifayət qədər yuxarıdır, səhiyyəyə ayrılan vəsait ümumi büdcə xərclərinin 5 faizdən də bir qədər artığını tutur ki, bu da 1,8 milyard manatlıq bir vəsaitdir. Yəni göründüyü kimi, əvvəlki büdcə ilə müqayisədə builki büdcədə hər hansı ciddi dəyişiklik yoxdur. Sadəcə müəyyən istiqamətlər üzrə xərclərin artırıldığını biz müşahidə edirdik. Bu da daha çox işğaldan azad olunmuş ərazilərimizə hədəfin fokuslanmasından ibarətdir".

# "Bütün fənlərin tədrisi insanın bilik öyrənməsinə yönəlməyib"



*EKSPERT AÇIQLADI*

"Müasir təhsil sistemində ənənəvi fənlərin bəziləri vacibliyini itirib. Məsələn, tarix fənlərinin birləşdirilməsi bəlkə də mümkün olar. Həmçinin, ola bilsin, həyati bacarıqlara hazırlıq bir fənn kimi ləğv edilə, digər fənlərin tərkibində tədrisə əlavə oluna bilər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Ekspert bildirib ki, bütün fənlərin tədrisi, əslində, insanın sadəcə, bilik öyrənməsinə yönəlməyib: "Bu fənlərin tədrisi həmçinin, insanın şəxsiyyət kimi formalaşmasına, həyati bacarıqlar əldə etməsinə, etik dəyərlərə yiyələnməsinə xidmət edir. Bu səbəblə hər hansı fənninin tədrisinin tamamilə dayandırılması deyil, başqa fənlərlə ümumiləşdirilməsini də tətbiq edə bilərik. Xüsusi ilə müasir dövrün tələbini nəzərə alınaraq İnformatika fənni ilə yanaşı, əlavə olaraq X-XI siniflərdə fakültətiv saatların hesabına şagirdlərə İKT bacarıqları kursu keçilməsi mümkündür. Orta məktəblərdə "İnsan və cəmiyyət" fənni tədris olunurdu, hazırda bu fənn "Həyat bilgisi"nə salınıb. 80-cı ildə ilk dəfə olaraq Azərbaycan tarixi SSRİ tarixinin tərkibindən ayrılıb və müstəqil fənn kimi tədrisə daxil edilib. Əvvəl şagirdə nə öyrədirdinsə, onu da öyrənirdi. İndi resurs var, müəllim bələdçidi, şagirdin isə bu resursa yaradıcı şəkildə yanaşmasına imkan verilir. Digər tərəfdən, istər özəl təhsil, istərsə də dövlət məktəbi olsun, heç birində təhsil dövlət standartından kənara çıxa bilməz. Bu, bütün dünyada belədir. Sovet dövründə dövlət təhsil standartı deyilən anlayış yox idi. İndi isə hər bir fənnin standartı var. Hər mövzu üçün məzmun xətti, standart və alt standart müəyyənləşib. Məzmun xəttində konkret nəyi öyrətmək, standart və alt standartda isə şagirdin bilik və bacarığına uyğun nə öyrənməsi əsasdır.

Həndəsə ilə cəbr fənnini necə birləşdirmək olar? "Həyat bilgisi" dərsliyində hər fəndən bir az var, bu da özünü doğrultmur. Astronomiyanı fizika ilə birləşdirmək doğru deyil. Orta ümumtəhsil məktəbinin vəzifəsi məzunlara sistemləşdirilmiş bilik, bacarıq və vərdiş verməkdir.

Dərs proqramları fənləri birləşdirmək hesabına yüngülləşməməlidir. Sovet dövründə tədris ili 36 həftə idi, 5 günlük dərs sisteminə keçməklə, bunu 32 həftəyə endirdilər, ona görə də dərs proqramlarında ağırlıq yaratdı. Üstəlik, bayram günlərinin də sayı çoxdur. Ona görə nazirlik tədris ilinin sonunu 3 həftə uzadıb".

***Səbinə Hüseynli***

# Dəfn pulu almaq üçün nə etmək lazımdır?

*AÇIQLANDI*



"Azərbaycanda dəfn üçün sosial müavinətin məbləği 500 (beş yüz) manat müəyyən edilib. Prezident İlham Əliyevin Sosial müavinətlərin məbləğinin artırılması və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanında əksini tapıb". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Fariz Əkbərov sözlərinə belə davam edib: "Dəfn pulu müavinətini Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilər ala bilərlər.

Yaşa görə pensiya alan şəxs vəfat etdikdə dəfn xərcini üzərinə götürən şəxsə minimum əmək pensiyasının- 280 manatın 3 misli, yəni 840 manat, ömürlük müavinət alan dövlət qulluqçuları, yaşa görə, əlilliyə görə sosial müavinət alan şəxslər, ailə başçısını itirməyə görə, habelə 1 iyul 2022-ci il tarixinədək sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş və hazırda sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq kimi müavinət alan uşaqlar, sığortaolunan və işsizlikdən sığorta ödənişini alan şəxslər 2023-cü ilin yanvarın 1-dən sonra vəfat etdikdə isə 500 manat məbləğində birdəfəlik müavinət ödənilir.

Müavinət dövlət qulluqçularına ömürlük, yaşa, əlilliyə və ailə başçısını itirməyə görə verilən müavinətlərdən biri təyin edilmiş, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işsizlikdən sığorta ödənişini alan, sığortaolunan şəxslər və əmək pensiyaçıları vəfat etdikdə təyin olunur.

Vəfat etmiş şəxs eyni zamanda həm sığortaolunan, həm də əmək pensiyaçısı olduqda, dəfn üçün müavinətin biri - məbləğcə daha böyüyü ödənilir. Qurumun məlumatına görə, əməkhaqqı və ya müavinət almayan şəxslərə dəfn üçün pul ödənilmir:

İşləməyən, pensiya və sosial müavinət, eləcə də işsizlikdən sığorta ödənişi almayan şəxs vəfat etdikdə dəfn üçün müavinətin verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmayıb.

Müavinət müraciət etmə müddətindən asılı olmayaraq şəxsin ölümü ilə əlaqədar onun dəfni ilə bağlı xərcləri çəkmiş şəxslərə təyin edilib ödənilir. Sosial müavinətin təyin olunması üçün şəxs müavinət almaq hüququ yarandıqdan sonra yaşayış yeri üzrə Dövlət Sosial Müdafiə Fondunun struktur bölməsinə, "DOST" mərkəzinə və ya "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə" müraciət edə bilər.

Dəfn üçün müavinəti əldə etməklə bağlı ölüm haqqında arayışın əsli, ölüm haqqında şəhadətnamənin surəti, vəfat edən şəxs əmək pensiyaçısı olduqda yerli bələdiyyə orqanından, vəfat edən şəxs sosial müavinət alan şəxs olduqda isə dəfni təşkil edən şəxs barədə yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı, vəfat edən şəxsin dəfn xərclərini öz üzərinə götürən şəxsin şəxsiyyət vəsiqəsinin surəti təqdim olunmalıdır. Qanunvericiliyə əsasən, dəfn pulundan vergi və məcburi sosial sığorta haqları tutulmur".

***Ayşən***


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Lənkəranda dəhşətli yol qəzası olub, 7 nəfər xəsarət alıb



Lənkəranda baş verən qəzada 7 nəfər xəsarət alıb. Yaralılardan 5 nəfəri Bərdə rayon sakinləridir. Hadisə Lənkəran-Boradigah-Masallı yolunun Girdəni kəndi ərazisindən keçən hissəsində qeydə alınıb. "QAZel" markalı yük maşını, "VAZ-21011" markalı minik avtomobili ilə toqquşub. Toqquşma nəticəsində 5 nəfər Bərdə rayon sakinləri 1984-cü il təvəllüdlü Ramin İsax oğlu Hüseynov, 1957-ci il təvəllüdlü Roza İsacan qızı Hümmətova, 2009-cu il təvəllüdlü Yasəmən Yasin qızı Şirinzadə, 1981-ci il təvəllüdlü Sevil Sabir qızı Hüseynova, 1980-cı il təvəllüdlü Sevinc Sabir qızı Hüseynova və iki nəfər Lənkəran rayon sakinləri 1988-ci il təvəllüdlü Elmin Əli oğlu Rzayev, 1984-cü il təvəllüdlü Mirmayis Mətləb oğlu İbrahimov müxtəlif dərəcəli bədən xəsarətləri alaraq Lənkəran rayon mərkəzi xəstəxanasının təcili yardım şöbəsinə yerləşdiriliblər. Yaralılardan Roza Hümmətovanın vəziyyəti ağır qiymətləndirilir.

Qeyd edək ki, Bərdə sakinlərinin Lənkərana qonaq gəldiyi bildirilir. Faktla bağlı araşdırma aparılır.

# 80 yaşlı milyarder "Mançester Yunayted"in səhmdarı oldu

"Omega Advisors"un təsisçisi Leon Kupermen "Mançester Yunayted"in səhmlərinin 2 faizini alıb. Bu barədə "Mirror" məlumat yayıb. İş adamı klubun səhmlərin 2 faizi üçün 15,7 milyon avro ödəyib. 80 yaşlı Kupermanın sərvətinin 2,4 milyard avro olduğu güman edilir. O, Nyu-Yorkda yerləşən "Omega Advisors" şirkətinin yaradıcısıdır.

# Riskli tibbi əməliyyat zamanı məsuliyyəti kim daşıyır?

*HÜQUQŞÜNAS AÇIQLADI*



"Əgər tibbi göstəriş varsa, xəstə əməliyyat olunmalıdır. Əgər xəstə heç özündə deyilsə, qərar qəbul edə bilmirsə, həkim qanunvericiliyin ona verdiyi səlahiyyətlər çərçivəsində qanuni və əsaslı şəkildə tibbi müdaxiləni, yaxud da cərrahiyyəni etməlidir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev həkimlərin əməliyyat zamanı xəstədən iltizamnamə alması barədə danışarkən deyib. Şamil Paşayev sözlərinə belə davam edib: "Ümumiyyətlə istənilən halda, həm estetik, həm də tibbi göstəriş olduqda əməliyyat olunarkən xəstənin yaxınlarından iltizamnamə alınması tamailə absurddur. Bu qayda bizim qanunvericiliklə uyğunlaşmır. Çünki bəlkə xəstənin qohumu onu öldürmək istəyir və bu səbəbdən əməliyyat etdirir?! Qohumdan iltizamnamə almağın nə mənası var? O hansı hüquqi proseduru yerinə yetirə bilər ki?!

Estetik əməliyyatlarda şəxsin özü əməliyyata gəlirsə, şəxs riskləri özü qarşılasa da belə, burada həkim məsuliyyət daşımalıdır. Tibbi göstərişlər şəxsin əməliyyat olunmasına icazə vermirsə, həkim onu əməliyyat etməməlidir. Bu iltizamın hər hansı bir hüquqi qüvvəsi yoxdur. Həkimin burada xəstəyə hər hansı zərər vurması, onun ölümünə səbəb olan hərəkətlər etməsi həkimi məsuliyyətdən kənarda saxlamır".

***A. Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**